

## Şimaldan yeni danışıq planı gəlir, yoxsa...

*Xəbər verildiyi kimi, Rusiyanın xarici işlər naziri Sergey Lavrov İran İslam Respublikasında rəsmi səfərdə olub. Dünən İran prezidenti İbrahim Rəisi Sergey Lavrovu qəbul edib. Görüş zamanı ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər müzakirə edilib.*

*Səh.9*


# UNİKAL

№22 (2107) 24 iyun 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Maliyyə naziri qiymətlərin ucuzlaşacağının anonsu verdi

*"İnflyasiya təkcə Azərbaycanın deyil, bütün dünyanın problemidir. Qlobal inflyasiya təzyiqləri ilk növbədə enerji daşıyıcılarının, əsasən neft-qazın bahalaşması ilə əlaqədardır. Qaz həmçinin müxtəlif növ gübrələr üçün xammaldır. Buna görə də gübrə qiymətləri də avtomatik olaraq artıb. Hətta müəyyən qədər qıtlıq da yaranıb. Bu isə ərzaq məhsullarının bahalaşmasına gətirib çıxarıb. İlk növbədə taxılın, o cümlədən buğdanın bahalaşması müşahidə olunur". "Unikal" xəbər verir ki, bunu Bakıda keçirilən Qara Dəniz Ticarət və İnkişaf Bankının 24-cü İllik Toplantısında maliyyə naziri Samir Şərifov bildirib. "Rusiya-Ukrayna müharibəsi nəqliyyat və logistika problemlərini daha də dərinləşdirib. Nəzərə alsaq ki, bu iki ölkə ən mühüm taxıl və bitki yağları istehsalçıları və təchizatçılarıdır, bu da qiymətlərin artımına təsir göstərir. Beləliklə, xarici amillər hesabına formalaşan qiymət artımı Azərbaycana da sirayət edib. Çünki ölkəmiz bir sıra məhsulların idxalçısıdır və biz də bu qiymət artımının mənfi təsirlərini yaşayırıq".*

Səh.9



Səh.3

## Tikinti oliqarxlarının "ipoteka səddi"

## "Kəndlini də qınamalı deyil, öz məhsulunu ucuz sata bilməz"



*ReAL partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal" qəzetinə müsahibə verib. O, deputatların maaşının artırılmasından, qiymətlərin bahalaşmasından, quru sərhədlərin açılmamasından və s. məsələlərdən danışıb.*

Səh.4

## Əli Əliyevin həbs müddəti uzadıldı



*Yasamal Rayon Məhkəməsində Vətəndaş və İnkişaf Partiyasının (VİP) həbsdə olan sədri Əli Əliyev barəsində xüsusi ittiham qaydasında verilən şikayət üzrə hökm oxunub və o, 6 ay müddətinə azadlıqdan məhrum edilib.*

Səh.4

## Taleh Bağırzadə aclıq aksiyasını dayandırdı



*Müsəlman Birliyi Hərəkatının sədri Taleh Bağırzadədən xəbər var. "Unikal"ın əldə etdiyi məlumata görə, Qobustan həbsxanasında cəza çəkən T.Bağırzadə bu gün aclıq aksiyasını dayandırıb. Aclıq aksiyasını dayandıran Taleh Bağırzadənin səhhəti ilə bağlı məsələyə aydınlıq gətirilib.*

Səh.2

# "Samiraldo kimi insanlar həyatın damarını tutaraq irəli gedirlər" - Modelyer



***"Müğənni Elza Seyidcahanın əvvəllər geyiminə baxsanız normal qaydada geyindiyini görəcəksiniz. Amma son dönəmlərdə o, fərqli obrazlarda tamaşaçı qarşısına çıxmağa və gülünc doğuran geyimlərdən istifadə etməyə başladı. Tutaq ki, şamdanı qoy təpənə o moda deyil. Moda tamam başqa şeydir".***

Bunu "Unikal"a açıqlamasında modelyer Şəlalə Maqsudova deyib. Onun sözlərinə görə, modada qeyri-adi geyimlərdə sənətini ortaya çıxartmalısan: "Kiminsə ətrafı başına səbəti qoysun içinə də armud, alma və s. Bu, sənət deyil. Mən ona həmişə yaddaşda qalım, qoy məndən danışsınlar. Mən bir modelyer olaraq, o işləri edə bilərəm, amma mən özüm-özünə fikirləşirəm ki, elə bir işlər ortaya çıxarmalıyam ki, uzun müddət sənət olaraq danışılsın. Ümumiyyətlə mənim işlərimə nəzər yetirin birdə Elza xanımın geyimlərinə...Xarici səhifələrin hər birində mənim əl işlərim paylaşılır, Elza xanımın deyil".

Modelyer həmçinin ölkəmizdə hər şəxsin modelyer kimi özünü göstərməsindən danışıb. "Vizajist, makiyaj ustası niyə görə gedib müğənnilərin tərzinə qiymət verir? Onu geyin, bunu geyinmə...Axı, onların geyimlərdən anlayışı yoxdur. Xaricdə belə deyil. Modelyerin işinə heç bir stilist qarışa bilməz. Stilistində işinə heç bir modelyer qarışa bilməz. O bizdədir. "Makeup" ustası sən get makiyajını elə, saçını düzəlt. Sizin geyimdən anlayışınız yoxdur. Kişisənsə uzun paltar geyinməklə özünü modelyer deyirsən ki, mən modelyerəm, stilistəm. Bu, deyil. Bu, sənətə xələl gətirməkdir. Modelyerlik bir məktəbdir. Biz stilistlərimiz bilirsiniz necədir? Bu ən çox da kişi makiyaj ustalarına aiddir. Çox pis bir yerə gəlib çatmışıq. Həqiqətəndə qabağa getməkdən ötrü, öz üzərində işləməlisən. İndi isə heç kəs sənətlə qabağa gəlmir. Bilirsiniz necə, hazır gəlmək istəyirlər. Aha, kişiyəmsə öz tərzimi dəyişim cəmiyyət məni alqışlayacaq. Cəmiyyət məni qəbul edəcək. Amma ortada sənət yoxdur. Ortada bir iş yoxdur. Sənəti olmayan çıxır sənətdən danışır. Bir ikidənə tanınmış müğənnini makiyaj elədi. Sonra gəlir kiməsə dərs verir. Kiminsə geyimini müzakirə edir. Axı, sənin o geyimdən anlayışın yoxdur. Makiyaj ustasısan get makiyanı elə. İndi bəzi stilistlərimiz var ki, qadınlar qalıb bir kənarda ortalığa atılanlar kişi deyilən ünsürlərdir ki, çıxır ortalığa geyimdən dərs keçir. Sənəti ucuzlaşdırmaq olmaz. Bizdə sənətkarlar arxada qalır, o ki, meymunluq edənlər ki, var ümumiyyətlə sənət aləmində bir bilgisi olmayan heç bir əziyyəti zəhməti olmayanlar ortalıqdadır. Hansısa vasitə ilə ortalıqdadır... Bu, bizi uçuruma aparır. Mənim əlimdə səlahiyyətim olsaydı, Azərbaycanda o qədər istedalı insanlar var ki, istər moda sahəsində istərsə də makiyaj sahəsində. Bir sözlə İncəsənətin bütün sahələrində nə qədər istedadlı gənclərimiz var. Onlara yol açmaq lazımdır. Amma yol açılmır. Məsələn Samiraldo kimi insanlar tutur həyatın damarını gedir irəli...".

*Gülayə*



## Şəbnəmin "Kamaz" sürücüləri haqda dediyi sözlər tənqid edildi

***Müğənni Şəbnəm Tovuzlunun avtomobil nömrəsi haqda dedikləri tənqid olunub.***

Sənətçi "Həmin Zaur" verilişində olarkən aparıcı ona maşın nömrəsi haqda sual verib. Şəbnəm isə "Hələ elə-belə nömrədir. Yadımda qalmır, "Kamaz" sürücülərinin nömrəsidir. "Kamaz" nömrəsidir" cavabını deyib.

Zaur Kamal isə "Elə demə, sabah "Kamaz" sürücüləri üstünə düşər. Denən, canım qurban onlara" reaksiyasını verib.

Şəbnəm isə "Niyə başqasının kişisinə canım qurban olsun? Polislər saxlayır, deyir ki, niyə bu nömrə ilə sürürsünüz. İstəyirəm "77SH777" nömrəsi götürəcəm" deyərək, ona etiraz edib.

İfaçının bu sözləri sosial şəbəkədə paylaşılaraq tənqid edilib.

## Türkan yenə Aygün Kazımovanın geyimini təkrarladı

***Müğənni Türkan Vəlizadə yenə Xalq artisti Aygün Kazımovanın geyimini təkrarlayıb.***



Kazımova sözügedən dəsti 2018-ci ilin dekabrında "Altın Kelebek" mükafatlandırma gecəsində geyinib.

Türkan isə ötən gün qatıldığı bir tədbirdə boz rəngli parıltılı kostyum geyinib. Türkan hətta altdan geyindiyi topu da Kazımovanın əynindəkinə oxşadıb.

Qeyd edək ki, ifaçı bundan əvvəl də A.Kazımovanın yaşıl rəngli dəstinin bənzərini geyinmişdi. Aygün sözügedən ətəyi və pencəyi "The Attico" brendindəndir. Ətəyin qiyməti 578 dollar (982 manat), pencək isə 1635 dollardır (2779 manat). Türkan isə həmin dəstin saxtasını yerli butiklərdən birindən aldığını vurğulamışdı.

# "Belə savadsızın oxuduğuna qulaq asa bilmərəm" - Qalmaqal

***"Müğənnidə bilik hardandır? İstedadı var oxuyur. Amma həddən artıq savadsız olmaq olmaz".***

Bu sözləri aparıcı Rövşanə Ağasəfqızı "Tarixin bir günü" proqramında deyib. Verilişdə müğənnilərin biliyi müzakirə olunub.

Müğənni Elnar Xəlilov həmkarları Damla və Vəfa Şərifovanı tənqid edib: "Damlaya sual verdilər ki, bir alim adı çək, edə bilmədi. Elə Eynşteynin instaqram doludu dili çıxan şəkilləri ilə. Vəfa Şərifovaya sual verirlər Türkiyənin paytaxtı haradır, dedi, İstanbul. Hələ prodüserinə dönüb deyir, nədir səhv dedim? Bu artıq tərbiyəsizlikdir".

Rövşanə onun sözlərinə "İçəri-şəhərdən düşəndə Yusif Məmmədəliyevin heykəli var, başını qaldır bax" reaksiyasını verib.

Aparıcı Tarix Əliyev (Tolik) isə "Damla "Avropanın paytaxtı Dubay" deyən Şəbnəm Tovuzluya güldü, öz başına gəldi" sözlərini əlavə edib.

R.Ağasəfqızı isə "Orta məktəbdə savad verirlər. Adi nələrisə də bilmirlər. Mən belə savadsızların oxuduğuna da qulaq asa bilmərəm" deyə, bildirib.





# Fuad Muradov İsraildə Azərbaycan icması ilə görüşdü

***Akko şəhərində fəaliyyət göstərən "İsraildə Azərbaycan Evi"ndə Azərbaycan icmasının üzvləri ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə çıxış edən Diaspora ilə İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin təbliği məqsədilə İsraildə məlumatlandırma kampaniyası apardıqlarına və müxtəlif aksiyalar təşkil etdiklərinə görə icma üzvlərinə minnətdarlığını bildirib. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin diasporumuzun Vətən müharibəsi dönəmindəki fəaliyyətini yüksək qiymətləndirdiyini, Qələbə münasibətilə xalqımızı təbrik edərkən diasporun bütün dünya üzrə xidmətlərini xüsusilə vurğuladığını nəzərə çatdırıb.

Akko şəhəri bələdiyyəsinin baş direktoru Yaniv Aşur və şəhər mədəniyyət evinin baş direktoru Ayala Sivan Ben Yosef çıxış edərək, icmamızın mədəniyyətlərarası anlaşmaya, ictimai-siyasi və humanitar sahələrə verdikləri töhfələrə diqqəti cəlb edib, xalqlarımız arasında sarsılmaz dostluq əlaqələrinin mövcud olduğunu məmnunluqla vurğulayıblar.

"İsraildə Azərbaycan Evi"nin rəhbəri Nexamiya Şirin Mixaeli və icma üzvləri Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyətinin Akkoya səfərini Azərbaycan diasporuna göstərilən həssas münasibətin təzahürü kimi qiymətləndiriblər.

Tədbir çərçivəsində DİDK sədri "İsraildə Azərbaycan Evi"nin rəhbəri Nexamiya Şirin Mixaeliyə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalını təqdim edib. İcma rəhbəri bu medala İsraildə Azərbaycan diasporunun inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

DİDK sədri həmçinin Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun Akko şəhərində yaşayan qardaşı Rant Aqarunovu və ailə üzvlərini ziyarət edib. Səmimi görüş zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimiz yad edilib. İsraildə Azərbaycan icmasının fəaliyyəti, vətənimizin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.

# Deputatlarımızın cavabını bilmədiyi asan sual

## Onların maaşı hər dəfə qaldırıldıqda bu niyə ictimai narazılıqlarla müşayiət olunur?




***Bu günlərdə Azərbaycanda deputatların maaşı artırıldı və...***

Və cəmiyyətdə müzakirə, mübahisə predmetinə çevrildi. Əlsəriyyət belə bir artıma ehtiyac olmadığı barədə qənaətini dilə gətirdi. Etirazlar çoxaldıqca Milli Məclis üzvləri də çıxıb maaşlarının artırılmasını əsaslandırmaq məcburiyyətində qaldılar. Üstəlik, ya birbaşa, ya da dolayısı ilə soruşdular ki, axı nə üçün Milli Məclis üzvlərinin əmək haqları hər dəfə qaldırılarkən cəmiyyətdə təpkilərə, narazılıqlara səbəb olur? Bir halda ki, millət vəkilləri bu sadə sualın cavabını bilmirlər, onda iş yenə medianın üzərinə düşür.

Bəri başdan qeyd edək ki, yuxarıdakı sualın bir yox, bir neçə cavabı var. Biz əsasən ikisi üzərində dayanacağıq.

Birinci: Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlının da qeyd etdiyi kimi, inflyasiya, bahalaşma sürətlənir, amma əhalinin qazancı, məvacibi artmır. Bu fonda millət vəkillərinin məvacıblərinin artırılması şübhəsiz ki, neqativ hal kimi ön plana çıxır və ictimai narazılıqlarla müşayiət olunur.

"Deputatların maaşının hazırkı zamanda qaldırılmasını düzgün hesab etmirəm, yəni gözləmək də olardı. Dövlət işində çalışan insanların mütləq əksəriyyəti elə bir məvacib almalıdırlar ki, gözləri orada-burada olmasın. İnsanların fikirləri budur ki, millət vəkillərini biz seçmişiksə, onlar niyə bizim hesabımıza məvaciblərini artırırlar, amma biz köhnə səviyyədə qalırıq? Yəni bunun müxtəlif yozumları və izahları ola bilər. İnsanların narazılığını haqlı hesab edirəm" - fikrimizcə, E.Şıxlının bu yanaşması ilə kifayətlənmək olar; çünki deputatların maaşı hər dəfə qaldırılanda ictimai müzakirələrin coşmasında ilkin səbəblərdən biri budur.

İkinci: biz millət vəkillərinin qalmaqallı çıxışlarına vərdiş eləmişik və təəssüf ki, bu qalmaqallı çıxışların bir çoxu əhalinin sosial problemlərinə qeyri-adekvat yanaşma sərgilənməsi ilə bağlıdır. Fikrimizi əsaslandırmaq üçün yaxşısı budur ki, kiçik bir xatırlatma edək.

Məsələn, eks-deputat Hadı Rəcəbli millət vəkili olarkən demişdi: "Biz məcburi köçkünlərin yaşadıqları evlərə gedirdik. Onlar işıq sperallarından isifadə edirdilər. Sonra isə pəncərəni açıq qoyurdular". Rəcəbli bununla məcburi köçkünləri israfçılıqda günahlandırmış və onun sözləri kəskin reaksiyalarla qarşılanmışdı. Bundan əvvəl isə o, qıcıq doğuran başqa bir açıqlama vermişdi: "Əgər bu gün müəllim 150-200 manat maaş alır və dolana bilmirsə, o işdən sonra da başqa nə ilə məşğul olmalıdır. Lənkəranın Veravul kəndində Balabəy müəllim adlı bir şəxs var. O, günün birinci yarısı müəllimlik edir, nahardan sonra isə gedib daş hörür, ustalıq edir".

Daha bir qalmaqallı açıqlamanın müəllifi isə başqa bir sabiq deputat Hüseynbala Mirələmov olmuşdu. O da millət vəkili ikən xalqa qənaətcillik dərsi verməyə çalışmışdı: "Ayağınızı yorğanınıza görə uzadın, azdı, az yeyin, çoxdu, çox yeyin. Adamlar var ki, ət yemir, balıq yemir, dieta saxlayır. Çox yemək də bir şey deyil. Çox yemək adamı qocaldır.".

H.Mirələmov açıqlamanın ciddi müzakirə və etiraz doğurduğunu görüb qısa müddət sonra onu təkzib etməyə çalışmışdı: "Söylədiklərimin hamısı kontekstdən çıxarılıb. Müsahibə verəndə zarafatla dedim ki, "indiki dövrdə xanımlarımızın çoxu fiqura saxlamaq üçün heç nə yemir-içmir". Özü də bir neçə dəfə dedim ki, "bu, zarafatdır". Təəssüf ki, dediklərimin hamısını montaj edərək, ancaq çılpaq yerlərini saxlayıblar. Buna görə də xalqda mənim haqqımda mənfi rəy yaranıb..." Lakin iş-işdən keçmişdi - cəmiyyət uzun müddət Mirələmovun absurd sözlərini müzakirə elədi.

Daha bir sabiq deputat, artıq həyatda olmayan - Aslan Şahverdiyevin millət vəkili ikən "otxod" ittihamı da yaddaşlardan silinməyib: "Azərbaycan cəmiyyəti haqda Rusiyada çox pis fikir formalaşıb, səbəbi bilirsiniz nədir? Mən bunun səbəbini araşdırmışam. Rusiyaya gedənlər kimlərdir? Bizim cəmiyyətin "otxodları"dır. Gedib bazarda işləyənlər..." Mərhum deputatın bir tikə çörək üçün ölkə kənarında işləyənlərə belə münasibəti əməllicə ajiotaj doğurdu, etirazlara səbəb oldu.

Həmin etirazlar yenicə sengimişdi ki, bu dəfə də başqa bir eks-deputat Bahar Muradovanın 2017-ci ilin büdcə layihəsinin müzakirəsi zamanı "xalq ayağını yorğanına görə uzatsın və hökumətdən olan gözləntilərini sonraya saxlasın" sözləri ictimai qınaqla nəticələndi.

Milli Məclisin hazırda da deputatı olan Aydın Hüseynovun ölkədəki işsizlik problemi ilə bağlı səsləndirdiyi fikirlərin də cəmiyyətdə ciddi narazılıqla qarşılandığı unudulmayıb. Bildirmişdi ki, Azərbaycanda işçilərə ehtiyac yaranacağı üçün xarici ölkələrdən işçilər dəvət edilməlidir: "Əgər kimsə hesab edirsə ki, Azərbaycanda iş yerlərinin sayı azalır, onlar səhv fikirləşirlər. Əksinə, Azərbaycanda iş yerləri daha da çoxalır. Yaxın gələcəkdə bu daha da çox olacaq. Hətta, yaxın gələcəkdə Azərbaycanda işçilərə ehtiyac yaranacağı üçün biz ölkəmizdə əmək bazarına xarici ölkələrdən insanları dəvət edəcəyik..."

Elə başqa bir deputat - Aqil Abbasın işsizliklə bağlı sözləri də uzun müddət müzakirə edildi. Söhbət millət vəkilinin "Amerikada, İngiltərədə, Fransada və ya Türkiyədə də hamı işlə təmin edilməyib. Dövlət qulluq vermirsə, sənə torpaq verir. Get orda soğan ək, ailəni saxla. Məsəl üçün deyirəm ha bunu. Mən də istəyərəm hamı işlə təmin olunsun. İşsizlik problemi ölkədə var, bunu kimsə danarsa, axmaq adam olar. Sadəcə, bütün dünyada gedən iqtisadi böhran var, problemlər var" məzmunlu açıqlamasından gedir.

Belə nümunələrin sayını xeyli artırmaq olar.

Dediyimiz odur ki, millət vəkilləri əhalinin real iqtisadi-sosial durumuna adekvat olmayan açıqlamalar verib, xalqa "ayaqlarını yorğanlarına görə uzatmağı", "işdən sonra daş hörüb ustalıq eləməyi", "azdırsa az, çoxdursa çox yeməyi"məsləhət görüb cəmiyyətdə qıcıq yaradırsa, bir gün o deputatların maaşı artırılanda cəmiyyət də bunu top-tüfənglə, etirazla qarşılayır. Necə deyərlər, "nə tökərsən aşına, o da çıxar qarşına..."

**_Murad İbrahimli_**

# Şimaldan yeni danışıq planı gəlir, yoxsa...

## Lavrovun Bakı səfəri Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesinə təkan verə bilər, yaxud daha fərqli məcraya yönəldər



***Xəbər verildiyi kimi, Rusiyanın xarici işlər naziri Sergey Lavrov İran İslam Respublikasında rəsmi səfərdə olub.***

Dünən İran prezidenti İbrahim Rəisi Sergey Lavrovu qəbul edib. Görüş zamanı ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər müzakirə edilib. Rusiyanın xarici işlər naziri Tehran administrasiyası ilə yeni strateji əməkdaşlığa hazır olduqlarını bəyan edərək, "İranla əməkdaşlığımızı bir çox sahədə, o cümlədən iqtisadiyyatda inkişaf etdirmək istəyirik" , - deyə bildirib.

Rusiya Xarici işlər nazirinin İrandan sonra Azərbaycana səfəri də təsadüfi deyil. Belə ki, rəsmi görüşlər zamanı Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması ilə bağlı müzakirələrin aparılıb aparılmayacağı barədə hər hansı bir informasiya yayılmasa da, bu mövzunun müzakirə predmeti olduğu istisna edilmir. Görünən odur ki, Rusiya 3+3 platformasında müzakirələrin aparılmasının tərəfdarıdır və Lavrovun bu səfərinin məqsədi də bu istiqamətdə danışıqların aktivləşdirilməsidir.

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə isə hesab edir ki, Rusiya "3+3" platformasını canlandırmağa çalışır. Onun fikrincə, əsas məqsəd iqtisadi sanksiyalardan müəyyən dərəcədə yayınmaq və Cənubi Qafqazda mövqelərini möhkəmləndirməkdən ibarətdir: "İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Türkiyənin birgə iradi sürdüyü bu iqtisadi model regionda sülhün və təhlükəsizliyin qarantı olmalı və iqtisadi inteqrasiyanı özündə ehtiva etməlidir. Amma, Rusiya ilə Gürcüstan arasında böhran, Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməməsi məhz belə bir platformanın işlək vəziyyətə gəlməsini sual altına alır.

Qeyd edim ki, elə Rusiyanın öz siyasəti nəticəsində "3+3" formatında problem var. Rusiya Gürcüstanın ərazisinin bir hissəsini zəbt edib. Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsini sabotaj edir. Belə olan təqdirdə Rusiyanın bu format çərçivəsində əməkdaşlığı yalnız öz maraqları çərçivəsində görür.

Rusiya özü bu format çərçivəsində öz iqtisadi və siyasi mövqeyini möhkəmləndirməyə çalışır. Belə olan təqdirdə "3+3" formatı nə Azərbaycanın, nə də Türkiyənin maraqlarına cavab verir. İlk növbədə Azərbaycanla Ermənistan sülh müqaviləsi bağlamalı, Rusiya Gürcüstan ərazisindən geri çəkilməlidir. Bundan sonra vahid platformada əməkdaşlıq mümkündür. Məhz prezident İlham Əliyev də indiki şərtlərlə, bu format çərçivəsində əməkdaşlıqda maraqlı olmayacaq".

Politoloq Elxan Şahinoğlu deyib ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya Tehrandan gəlməsinin arxasında konkret niyyət var. Onun sözlərinə görə, Lavrovun İran paytaxtında ikitərəfli əməkdaşlığın hazırkı vəziyyətini, Tehranın nüvə çalışmalarını və Suriyadakı durumu müzakirə edəcəyini proqnozlaşdırmaq olar: "Rusiya və İran Qərbin sanksiyaları altındadırlar. Ona görə hər ikisi bir-biri ilə siyasi və iqtisadi əlaqələrin inkişafını istəyirlər, sadəcə həm Rusiyanın, həm də İranın hazırkı ağır iqtisadi vəziyyət şəraitində bir-birlərinə təklif edəcək layihələr çox deyil. İki dövlət arasında hərbi əməkdaşlıq haqqında çox danışılsa da, bu istiqamətdə də irəliləyiş yoxdur. İranın kifayət qədər maliyyəsi yoxdur ki, Rusiyadan almaq istədiyi hərbi texnikanın hesabını ödəyə bilsin.

İkinci mövzu Tehranın nüvə çalışmalarıyla bağlıdır. Lavrov Tehranın Qərblə yeni nüvə anlaşması imzalayıb imzalamayacağı barədə iranlı rəsmilərin nəbzini yoxlayacaq. Suriyaya gəldikdə Rusiya və İran Türkiyənin yeni hərbi əməliyyatının əleyhinədirlər. Tehranda tərəflər bunu vurğulayacaqlar. Ancaq Türkiyə milli və təhlükəsizlik maraqlarından çıxış edir və əgər bu maraqlar Suriya ərazisində terrorçulara qarşı hərbi əməliyyatı diqtə edəcəksə, Moskva və Tehranın bu barədə nə düşündüyü Ankara üçün əsas olmayacaq".

Siyasi şərhçi Ceyhun Əhmədli isə deyib ki, Lavrovun Bakı turnesinin əsas məqsədi Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi ilə bağlı məsələlərə təkan verməkdir. O bildirib ki, Lavrovun Bakı səfərində Rusiyanın Ukrayna məsələsi ilə bağlı Azərbaycandan yardım ummaq məqsədi yoxdur:

"Söz yox ki, əsas müzakirə predmeti sərhədlərin delimitasiyası ilə bağlı olacaq. Çünki Rusiya tərəfi son vaxtlar bu istiqamətdə fəal vasitəçilik missiyası həyata keçirmək niyyətini açıq şəkildə nümayiş etdirir. Çünki son vaxtlar Avropa İttifaqının bu istiqamətdə fəallaşması müşahidə olunmaqdadır. Rəsmi Moskva isə sülh prosesinin onun nəzarətindən kənar həyata keçirilməsini özü üçün arzuolunmaz hesab edir. Ona görə də, bu məsələyə xüsusilə həssas yanaşılır.

Məlum olduğu kimi, sərhəd komissiyalarının növbəti iclası Moskvada həyata keçiriləcək. Rusiya tərəfi həmin iclasda öz arxivində olan kartoqrafik məlumatları təqdim edəcəyini bəyan edib. Bunun özü müsbət mesajdır. Çünki sovet xəritələrində əks olunan məlumatlar bizim maraqlarımıza tam cavab verir. Üstəlik, Rusiyanın fəal vasitəçilik mövqeyindən çıxış etməsi bizim üçün həm də ona görə vacibdir ki, bu ölkənin Ermənistan üzərində çox böyük təsir imkanları var. Yəni Rusiyanın prosesdə iştirakı Ermənistanın təxribat xarakterli manevr cəhdlərini əhəmiyyətli dərəcədə azaldacaq. Düşünmürəm ki, Rusiyanın hazırda Ukrayna məsələsi ilə bağlı Azərbaycandan yardım ummaq niyyəti olsun. Çünki rəsmi Bakının bu barədə mövqeyi aydındır. Biz heç vaxt bu münaqişənin tərəfi olmayacağıq. Həm Ukrayna, həm də Rusiya bizim strateji partnyorlarımızdır. Rəsmi Bakı müharibənin ən qısa zamanda dayandırılmasının və iki dövlət arasında sülh körpülərinin qurulmasında maraqlıdır. Azərbaycan bunun reallaşması üçün özünün vasitəçilik imkanlarını ortaya qoya bilər".

**Z.Məmmədli**



# Maliyyə naziri qiymətlərin ucuzlaşacağının anonsu verdi

***"İnflyasiya təkcə Azərbaycanın deyil, bütün dünyanın problemidir. Qlobal inflyasiya təzyiqləri ilk növbədə enerji daşıyıcılarının, əsasən neft-qazın bahalaşması ilə əlaqədardır. Qaz həmçinin müxtəlif növ gübrələr üçün xammaldır. Buna görə də gübrə qiymətləri də avtomatik olaraq artıb. Hətta müəyyən qədər qıtlıq da yaranıb. Bu isə ərzaq məhsullarının bahalaşmasına gətirib çıxarıb. İlk növbədə taxılın, o cümlədən buğdanın bahalaşması müşahidə olunur".***

"Unikal" xəbər verir ki, bunu Bakıda keçirilən Qara Dəniz Ticarət və İnkişaf Bankının 24-cü İllik Toplantısında maliyyə naziri Samir Şərifov bildirib.

"Rusiya-Ukrayna müharibəsi nəqliyyat və logistika problemlərini daha də dərinləşdirib. Nəzərə alsaq ki, bu iki ölkə ən mühüm taxıl və bitki yağları istehsalçıları və təchizatçılarıdır, bu da qiymətlərin artımına təsir göstərir. Beləliklə, xarici amillər hesabına formalaşan qiymət artımı Azərbaycana da sirayət edib. Çünki ölkəmiz bir sıra məhsulların idxalçısıdır və biz də bu qiymət artımının mənfi təsirlərini yaşayırıq".

Nazir həyata keçirilən antiinflyasiya tədbirlərindən də danışıb:

"Hökumət ölkə prezidentinin tapşırığı ilə müəyyən antiinflyasiya tədbirləri hazırlayıb həyata keçirir. Bu tədbirlərin əsasən Azərbaycana idxal olunan ərzaq məhsulları üzrə gömrük rüsumlarının və vergilərin aradan qaldırılmasıdır. Bununla əlaqədar lazımi qərarlar qəbul edilir. Onların icrasının nəticəsində qiymətlərdə bir qədər azalma baş verəcək".

# Nazir müavini Qarabağda görülən işlərdən danışdı

***Büdcəmiz inkişaf büdcəsidir və növbəti illərdə Qarabağ regionu Azərbaycan iqtisadiyyatının mühüm hissəsi olacaqdır.***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova Milli Məclisin iki komitəsinin Şuşada keçirilən iclasında çıxışı zamanı deyib.

Nazir müavini bildirib ki, büdcədə də məhz Qarabağ regionunun inkişafı üçün əlavə vəsaitin ayrılması nəzərdə tutulub.

O qeyd edib ki, artıq Araz vadisi və Ağdam iqtisadi zonaları yaradılıb və Ağdam iqtisadi zonasında ilk rezidentlərimiz də var. Bütün bunlar bu regionda iş yerlərinin yaradılmasına və zonanın iqtisadi inkişafına müsbət təsir edəcəkdir.

# DGKA-da yekun qiymətləndirilmə mərhələsi keçirildi

***Dövlət Gömrük Komitəsinin Akademiyasında 50 nəfər gömrük xidməti əməkdaşının iştirak etdiyi növbəti ixtisasartırma təlimlərinin yekun qiymətləndirilmə mərhələsi keçirilib.***

"Unikal" xəbər verir ki, qiymətləndirmədən öncə ixtisasartırma təlimlərinin dinləyiciləri ilə görüşən Akademiyanın rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov iştirakçıları salamlayaraq, gömrük xidməti əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə təşkil edilən təlimlərin effektivliyindən söz açıb. Qulu Novruzov həmçinin 6 həftə ərzində davam edən həm nəzəri, həm praktiki hissədən ibarət olan təlimlərdə dinləyicilərin əldə etdikləri zəruri bilik və bacarıqların vacib rolundan bəhs edib.

Müştəri məmnuniyyəti siyasətinə uyğun olaraq tədris prosesinin iştirakçılarının məmnuniyyət səviyyəsinin mütəmadi olaraq yüksəldilməsinin Akademiyanın prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdıran Qulu Novruzov yekunlaşan bütün təlimlərin dinləyiciləri arasında məmnunluqla bağlı keçirilən sorğuların sözügedən təlimlərin keyfiyyətinin yüksəldilməsinə önəmli təsirini də qeyd edib. Akademiya rəisi obyektivlik və şəffaflıq prinsipi əsasında keçirilən yekun qiymətləndirmənin təşkili prosesindən söz açaraq sonda dinləyicilərə uğurlar arzulayıb əldə edilən bilik və bacarıqların onların xidməti fəaliyyətlərinə önəmli töhfə verəcəyini əminliklə qeyd edib.

Görüşdən sonra təlim iştirakçılarının biliklərinin yekun qiymətləndirilməsi keçirilib.

# Prezident tapşırıq verdi - Türkiyəyə amfibiya təyyarəsi göndərilir



***Azərbaycan Fövqəladə Hallar Nazirliyinin (FHN) amfibiya təyyarəsi Türkiyədəki meşə yanğınlarının söndürülməsində iştirak etmək üçün qardaş ölkəyə göndərilir.***

Bu barədə "Unikal"a FHN-dən məlumat verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, meşə yanğınlarının daha geniş miqyas almasına imkan verilməməsi və söndürülməsi üçün qardaş ölkəyə köməklik məqsədilə Azərbaycan Fövqəladə Hallar Nazirliyinə məxsus "BE-200ÇS" amfibiya tipli təyyarə yaxın saatlarda Türkiyə Respublikasının Muğla bölgəsinin Dalaman Hava Limanına yola düşəcək.

Hazırda təyyarənin yola salınması üçün hazırlıq işləri gedir.

# Azərbaycan və Fransa XİN-ləri siyasi məsləhətləşmələr keçirdi

***İyunun 21-də Fransanın paytaxtı Paris şəhərində Azərbaycan Xarici İşlər Nazirliyi ilə Fransanın Avropa və Xarici İşlər Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələr keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Məsləhətləşmələrdə Azərbaycan tərəfindən nümayəndə heyətinə xarici işlər nazirinin müavini Xələf Xələfov, qarşı tərəfdən isə Fransa Respublikası Avropa və Xarici İşlər Nazirliyinin Kontinental Avropa idarəsinin direktoru Frederik Mondoloni rəhbərlik edib.



Danışıqlar zamanı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq, regional məsələlər, Azərbaycanın Avropa dövlətləri və Avropa İttifaqı ilə münasibətləri müzakirə edilib. Tərəflər, bölgədəki cari vəziyyət, üçtərəfli bəyanatların icrası, post münaqişə kontekstində Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıb.

Parisə səfəri çərçivəsində nazir müavini Xələf Xələfov, həmçinin Fransa Senatının Xarici işlər, müdafiə və silahlı qüvvələr komissiyasının sədr müavini Joel Qerrio ilə, habelə Fransa Şirkətlər Hərəkatına (MEDEF) daxil olan aparıcı fransız şirkətləri təmsilçiləri, beyin mərkəzləri və Fransanın elmi, siyasi dairələrinin nümayəndələri ilə görüşlər keçirib. Görüşlər zamanı beynəlxalq və regional məsələlər, Fransa şirkətlərinin Cənubi Qafqazda sülh prosesləri nəticəsində yarana biləcək yeni nəqliyyat və logistika infrastrukturun formalaşdırılmasında, xüsusən də Azərbaycanda, o cümlədən işğaldan azad olunmuş ərazilərdə bərpa işlərində iştirak imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# Taleh Bağırzadə aclıq aksiyasını dayandırdı



***Müsəlman Birliyi Hərəkatının sədri Taleh Bağırzadədən xəbər var.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Qobustan həbsxanasında cəza çəkən T.Bağırzadə bu gün aclıq aksiyasını dayandırıb.

Aclıq aksiyasını dayandıran Taleh Bağırzadənin səhhəti ilə bağlı məsələyə aydınlıq gətirilib. Penitensiar Xidmətdən "Unikal"a bildirilib ki, Taleh Bağırzadə bir neçə saat öncə aclıq aksiyasını dayandırıb:

"Onun vəziyyəti normaldır", - deyə məlumatda qeyd olunub.

Qeyd edək ki, o, iyunun 3-də aclıq aksiyasına başlamışdı.

# Təhsil naziri Qazaxıstana gedib

***Təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Türk Akademiyasının 5-ci iclasında iştirak etmək məqsədilə Qazaxıstan Respublikasında səfərdədir.***

Bu barədə "Unikal" a Təhsil Nazirliyindən məlumat verilib. Bildirilib ki, nümayəndə heyəti Nur-Sultan şəhərində yerləşən "Quantum" STEM məktəbi və Nazarbayev intellektual məktəblərini ziyarət edib, hər iki müəssisədə yaradılan şəraitlə tanış olub.

Nümayəndə heyətinə hər iki müəssisənin nailiyyətləri haqqında ətraflı məlumat verilib və Azərbaycandan olan tərəfdaşlarla əməkdaşlıqda maraq ifadə edilib.

Sözügedən tarixdə nümayəndə heyəti həmçinin Peşə texniki kolleci və İctimai iaşə və xidmət kollecini ziyarət edib. Ziyarət zamanı nümayəndə heyəti müəssisələrin fəaliyyəti və tələbələr üçün yaradılan şəraitlə tanış olub.

Həmin gün təhsil naziri Emin Əmrullayev Qazaxıstan Respublikasının maarif naziri Asxat Aymaqambetov ilə görüşüb. Görüş zamanı ölkələrimiz arasında təhsil sahəsində mövcud



əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı maraq kəsb edən istiqamətlər üzrə təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

# Lavrovun Azərbaycana səfəri başladı



***Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfəri başlayıb.***

"Unikal" xəbər verir ki, nazirin Bakıya səfəri iki gün davam edəcək. Lavrov səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev və həmkarı Ceyhun Bayramovla görüşəcək. Sabah XİN başçılarının iştirakı ilə birgə mətbuat konfransı keçiriləcək.

Qeyd edək ki, nazir Sergey Lavrov Bakıya İrandan gəlib.

# Sel Goranboyda 306 məcburi köçkünün evinə ziyan vurub



***"İyunun 22-də yağan güclü yağış nəticəsində sel suları Goranboy rayonunun Aşağı Ağcakənd kəndi ərazisində məcburi köçkünlər üçün salınmış 306 fərdi evdən ibarət qəsəbəyə ziyan vurub".***

Bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib. "İlkin məlumata görə, sel qəsəbənin daxili yol və küçələrini basıb, 12 fərdi evin zirzəmisinə su dolub. Məcburi köçkün ailələrin yardımçı təsərrüfatlarına da ziyan dəyib: ev quşları arasında tələfat var, həyətyanı sahələrdə bəzi ağaclar və əkinlər məhv olub. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Bakıdan ezam olunmuş müvafiq strukturlarının əməkdaşları təbii fəlakət baş vermiş ərazidədir. Dövlət Komitəsinin Mənzil-Kommunal İstismar Departamentinin Goranboy mənzil-istismar sahəsinin (MİS) işçi qüvvəsi və texniki vasitələri təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına cəlb edilib.

MİS-in rəisi Seymur Çobanov bildirib ki, hazırda qəsəbədə sel sularının törətdiyi fəsadlar aradan qaldırılır, zərər görmüş evlərin zirzəmiləri sudan təmizlənir, məcburi köçkün ailələrə dəyən zərər dəqiqləşdirilir", - məlumatda qeyd edilib.




# Daha 26 nəfər koronavirusa yoluxdu

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 26 yeni yoluxma faktı qeydə alınıb, 10 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, ölən olmayıb.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 222, bu günə qədər isə ümumilikdə 6 947 820 test icra olunub.

# Meymunçiçəyi virusu pandemiya elan edildi

***Ümumdünya Səhiyyə Şəbəkəsi meymunçiçəyi virusunu pandemiya elan edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə qurumun saytında məlumat verilib.

Təşkilat meymun çiçəyi xəstəliyini qlobal ictimai sağlamlıq üçün fövqəladə vəziyyət elan edib.

Qeyd olunub ki, epidemiyanın mənfi nəticələrini azaltmaq üçün virusun keçdiyi yerdə təcili tədbirlər görülməklə epidemiya aradan qaldırılmalıdır.

***Ağarza Elçinoğlu***

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Tikinti oliqarxlarının "ipoteka səddi"

## MTK-ların absurd kreditləşmə siyasəti - ilkin ödənişlərin və faizlərin yüksək olması azərbaycanlıları evsiz qoyur"

***Azərbaycanda gənc ailələrin mənzilə sahib olmaq problemi hazırda əsas məsələlərdən biridir. Mənzil almaq istəyən vətəndaşlar ən yaxşı halda dövlətin təklif etdiyi güzəştli ipotekadan istifadə edirlər. Lakin bu ipoteka şərtləri bir çox hallarda vətəndaşlar üçün keçərli olmur. Çünki onlar həmin kateqoriyaya aid olmadıqları üçün güzəştli şərtlərdən yararlana bilmirlər.***

Belə olan halda isə vətəndaşlar özəl şirkətlərin təklif etdiyi 8-10 faizlik ipotekalı mənzillərə üz tuturlar.Bu mənzillərin vətəndaşlar üçün nə qədər əlverişli olub-olmadığını dəyərləndirən ”Əmlak” Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı maraqlı bir məqamı açıqlayıb. O, baku.ws-ə bildirib ki, Azərbaycanda dövlət ipotekası, xüsusən də güzəştli şərtlərlə verilən ipoteka hamı üçün əlçatan deyil: ”Çünki bu ipoteka xüsusi kateqoriyaları əhatə edir. Ümumi ipoteka şərtləri isə belədir ki, gənc ailənin gəlirləri 1200-1300 AZN olmalıdır. Həmçinin bu gəlirlər rəsmi olmalıdır. Buna cavab verən ailələrin sayı isə çox azdır. Özəl şirkətlərlə bağlı vəziyyət isə daha mürəkkəbdir. Hesab edirəm ki, özəl şirkətlərin təklif etdiyi ipoteka kreditləri kənardan əlçatan görünsə də, vətəndaşlar üçün təhlükəlidir. İnsanlar bir çox hallarda buna aldanırlar, amma bu məsələ ciddi şəkildə təhlil olunmalıdır”.



Ekspert deyib ki, tikinti şirkəti 8-10 faizlə ipoteka təklif edirsə, mənzilin nağd satışla müqayisədə dəyərini xeyli yuxarı göstərir. Eyni zamanda bunun üzərinə faiz dərəcələri də əlavə olunduqda 5-20 il müddətinə mənzilin ipoteka alışında 3 dəfəyə yaxın ziyana düşür. Bu, olduqca riskli anlayışdır və tədricən vətəndaşlar bu cür şirkətlərə etimadı azaldır. Ancaq bazarda alternativ olmadığından həmin şirkətlərin işi yaxşı gedir.

Əksər mütəxəssislər kimi R.Osmanlı da tikinti şirkətlərinin qiymət siyasətinə nəzarətin vacibliyini vurğulayıb. Əlbəttə ki, tikinti şirkəti qiymət müəyyənləşdirərkən ona müdaxilə edilməsi bazar iqtisadiyyatının prinsiplərinə ziddir. Lakin tikinti şirkəti nağd satışla 1 kvadrat metr 1000 manata bazara çıxarırsa, ipoteka kreditləşməsi zamanı onu 1300-1500 manata rəsmiləşdirməsi yolverilməzdir. Bu, vəziyyətdən sui-istifadədir, daha açıq şəkildə desək, vətəndaşların cibinə girməkdir.

Bir məqamı da vurğulamaqda fayda var. Hazırda Azərbaycanın mənzil portfeli təxminən 2 milyon 800 min civarındadır. Həmin rəqəm ölkədə bina və həyət evlərinin ümumi sayını göstərir. Ancaq o da faktdır ki, əhali arasında evsiz olanların sayı da kifayət qədər çoxdur.

Daşınmaz əmlak üzrə mütəxəssis Elnur Fərzəliyev bir müddət öncə bildirmişdi ki, buna əsas səbəb ipoteka krediti şərtlərinin ağır, eləcə də illik faiz və aylıq ödənişlərin əhalinin gəlirlərindən yüksək olmasıdır. Bununla belə, o, son iki il ərzində ipoteka krediti ilə satılan mənzillərin nağd satışla müqayisədə üstünlük təşkil etdiyini də vurğulayıb, lakin əlavə edib ki, bu satışlar əhalinin məişət şəraitinin tədricən yaxşılaşdığını deməyə imkan vermir, çünki elə insanlar var ki, onların 3-5, hətta 8-10 evi var, amma elə ailələr də var ki, bir neçə ailə - yəni, oğlunun, qızının ailəsi, - hamısı bir evdə yaşayırlar və ya kirayədə qalırlar. Onlar arasında gənc ailələr üstünlük təşkil edir.

Ekspertin fikrincə, tikinti şirkətlərinin irəli sürdüyü daxili kredit sistemi də məsələni həll etməyə qadir deyil, çünki bu zaman illik faiz dərəcəsi yüksək olur və ilkin ödəniş tələbi isə 30 faizdən başlayır. Ekspert bu şərtləri orta əməkhaqqı alan azərbaycanlının daxili kreditdən yararlanması üçün əlçatan saymır. O, ölkədə daşınmaz əmlak sektorunu canlandırmaq və tikinti sahəsinin ölkə iqtisadiyyatında payını artırmaq üçün ipotekanın 2 faizə endirilməsini təklif edir.

İnsaf naminə onu da qeyd edək ki, özəl tikinti şirkətlərinin təqdim etdiyi ipoteka kreditlərinin faiz dərəcəsi aşağı (bəzi hallarda faizsiz), ilkin ödəniş (10-15 faiz) üçün tələbləri isə minimal olur. Belə kreditlərin verilməsi zamanı sənədləşmə prosedurları da minimaldır. İlkin ödəniş ödənildikdən sonra kredit qısa müddətdə verilir. Amma...

İşin ”amma”sı ondadır ki, bu kreditlərlə satılan mənzillərə də çox yüksək qiymət qoyulur. Məsələn, 46-48 kvadratmetrlik birotaqlı mənzil 20 illik kreditlə hardasa 80-90 min manata başa gəlir. Yəni nəğd qiymətindən azı üç dəfə baha! Üstəlik, bir çox ərazilərdə bu qiymətə nağd alışla iki belə mənzil əldə etmək mümkündür. Bir sözlə, haradan baxsan, ev arzusunda olan vətəndaşlar üçün çıxılmaz durumdur.

Bankların ipoteka kreditləşməsi üçün həm sənədləşmə şərtləri, həm aylıq ödəniş məbləğləri, həm faiz dərəcələri mütləq əksəriyyət üçün əlçatan deyil.

Düzdür, ən sərfəli ipoteka kreditlərini İpoteka və Kredit Zəmanət Fondu təklif edir: məhsullar üzrə kredit faizi 4-8, ilkin ödəniş 10-15 faiz, maksimum müddət 30 il. Lakin bu kreditlər də məhdud çevrədə vətəndaşlara standart şərtlər əsasında verilir.

Tikinti şirkətləri, tikinti oliqarxları isə yaranmış bütün bu real vəziyyətdən, ekspertlərin də vurğuladığı kimi, faydalanmaq üçün əllərindən gələni edir, sonda da vətəndaşların ev arzusunun önündə aşılmaz səddə çevrilirlər. Bizə də ancaq təəssüflənmək qalır, bir də sadalanan problemlərin həlli istiqamətində aidiyyatı qurumların konkret addım atmasını gözləmək...

***Sənan Mirzə***



# Təhsil nazirlikləri arasında saziş təsdiqləndi

***Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə fərman imzalayıb.***

“Unikal” xəbər verir ki, fərmanla 2022-ci il fevralın 21-də Tbilisi şəhərində imzalanmış “Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilib.

Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməli, Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan hökumətinə bildiriş göndərməlidir.

# Əli Əhmədov BQXK rəsmilərilə görüşüb

***Baş nazirin müavini Əli Əhmədov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin səlahiyyətləri başa çatmaqda olan rəhbəri Arian Bauer və nümayəndəliyin yeni rəhbəri Draqana Koiç ilə görüşüb.***

Nazirlər Kabinetindən “Unikal”a verilən məlumata görə, görüşdə Azərbaycan ilə BQXK arasında uzunmüddətli əməkdaşlığın uğurlu nəticələri barədə söhbət açılıb, birgə həyata keçirilən layihələrin önəmi vurğulanıb.

Həmçinin BQXK-nın Azərbaycandakı nümayəndəliyinin fəaliyyəti ilə bağlı cari və perspektiv məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev adına Saraya direktor əvəzi təyin olundu

***Heydər Əliyev adına Saraya direktor vəzifəsini icra edən təyin olunub.***

Mədəniyyət Nazirliyindən ”Unikal”a verilən məlumata görə, bu vəzifə tanınmış aktyor, rejissor və aparıcı Faiq Mirzəyevə həvalə olunub.

Müvafiq əmri mədəniyyət naziri Anar Kərimov imzalayıb.

Qeyd edək ki, Heydər Əliyev adına Sarayın direktoru Ramil Qasımov iyunun 16-da vəzifəsindən azad olunub.

# Rəsul Rzanın ev-muzeyi yaradılacaq

***Prezident İlham Əliyev Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında sərəncam imzalayıb.***

Sərəncama əsasən, Nazirlər Kabinetinə Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında Rəsul Rzanın ev-muzeyinin yaradılması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb.

Qeyd edək ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanmış, ana dilinin zənginliklərindən uğurla faydalanaraq, yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaratmış, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınıb.



# Əli Əliyevin həbs müddəti uzadıldı

***Yasamal Rayon Məhkəməsində Vətəndaş və İnkişaf Partiyasının (VİP) həbsdə olan sədri Əli Əliyev barəsində xüsusi ittiham qaydasında verilən şikayət üzrə hökm oxunub və o, 6 ay müddətinə azadlıqdan məhrum edilib.***

Bu barədə hökm Yasamal Rayon Məhkəməsinin hakimi Rəşad Cavadzadənin sədrliyi ilə keçirilən prosesdə elan edilib. Hökmdə qeyd edilib ki, Əli Əliyevin əvvəlki cəzaları birləşdirilib və ona 1 il azadlıqdan məhrum etmə cəzası təyin olunub.

Prosesdə xüsusi ittihamçı Ramiz Göyüşov iştirak etməyib.

Xatırladaq ki, Ramiz Göyüşovun bir neçə ay əvvəl sosial şəbəkələrdə intim videosu yayılıb. Bundan sonra Ramiz Göyüşov YAP-dan kənarlaşdırılıb.

VİP sədri Əli Əliyev 2021-ci il noyabrın 30-da qəzaya uğrayan DSX-ya məxsus "Mi-17" tipli helikopterdə sağ qalan polkovnik-leytenant Emil Cəfərov və kapitan Ramin Ədilovun xüsusi ittiham qaydasında şikayəti əsasında Cinayət Məcəlləsinin 147.1-ci maddəsinə (böhtan) uyğun olaraq 5 ay müddətinə azadlıqdan məhrum olunub.

Daha sonra R.Ədilovun şikayəti əsasında Yasamal Rayon Məhkəməsinin qərarına görə, Ə.Əliyevə 5 ay həbs cəzası təyin olunub. Təqsirləndirilən şəxs barəsində əvvəlki cəza müddəti ilə hazırkı cəza qismən toplanaraq ümumilikdə 6 ay azadlıqdan məhrum etmə cəzası seçilib.

# "Qarabağımızı birlikdə quraq" layihəsinə start verilib

***44 günlük Vətən Müharibəsi zamanı ordumuzun şanlı qələbəsindən sonra "Qarabağa dönüş" təşkilatı qazi və müharibə iştirakçılarının, o cümlədən şəhid ailələrinin məşğulluq problemlərinin həllinə töhfə vermək üçün "Qarabağımızı birlikdə quraq" layihəsinə start verib.***

Layihə çərçivəsində 25 qazi və müharibə iştirakçısı BP-Azərbaycan və Ekvita şirkətlərinin maliyyə dəstəyi ilə Kulane Peşə Təhsil Mərkəzində kurslara cəlb olunublar.

Bildirilib ki, 6 ay ərzində qazi və müharibə iştirakçıları sözügedən mərkəzdə Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit (SƏTƏM) həmçinin yükqaldırma üzrə mütəxəssis peşələrinin sirrlərini öyrəniblər. Bundan başqa onlara ingilis dili, psixologiya, etik davranış qaydaları tədris olunub.

Bu gün kursu bitirən qazi və müharibə iştirakçılarına beynəlxalq sertifikatlar təqdim olunub.

Tədbirdə çıxış edən "Qarabağa dönüş" təşkilatının rəhbəri, millət vəkili Tural Gəncəliyev şirkət rəhbərlərini qazi və müharibə iştirakçılarının məşğulluq məsələlərinin həllinə çalışmaları üçün çağırış edib.

T.Gəncəliyev, həmçinin bildirib ki, qazi və müharibə iştirakşılarının işlə təminatı məsələsi ilə yanaşı, onların fərdi inkişafına yardım göstərmək hər kəsin borcudur.

# "Kəndlini də qınamalı deyil, öz məhsulunu ucuz sata bilməz"

## Natiq Cəfərli: "Digər məhsulların hər birinin qiyməti qalxıb, kəndli məcburdur ki, məhsulu baha satsın, çünki, qazandığı pulu bir il xərcləyir"

***ReAL partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal" qəzetinə müsahibə verib. O, deputatların maaşının artırılmasından, qiymətlərin bahalaşmasından, quru sərhədlərin açılmamasından və s. məsələlərdən danışıb.***

***-Son günlər ən çox müzakirə olunan məsələlərdən biri də deputatların maaşının artırılmasıdır. Bununla bağlı sizin fikirlərinizi bilmək istərdik. Necə düşünürsüz, deputatların və nazirlərin maaşı nə qədər olmalıdır?***

-Ölkədə deputatların, məmurların maaşlarının məbləğinin müzakirəsinin aparılmasındansa, onların funksiyası, hansı formada təmsilçiliyi ilə bağlı diskusiyaların olması daha yaxşıdır. Deputatların maaşı hətta 10 min manat da ola bilər. Problem bunda deyil. Burada əsas söhbət seçkilərlə bağlıdır. Yəni, parlament seçkilərlə və vətəndaşların iştirakı ilə formalaşmalıdır. Bu zaman, hər dairədən 40-45 min seçicini təmsil edən deputatın maaşının nə qədər olması elə də önəmli olmayacaq. İndi müəyyən problemlər ondan qaynaqlanır ki, vətəndaşlar həm seçkidə iştirak etmirlər, iştirak etsələr də səsləri doğru sayılmır. Vətəndaşlar parlamentdə təmsil olunanların maaşının artırılmasını özlərinin dolanışıqları ilə müqayisə edəndə müəyyən qıcıq yaranır. Ona görə də bununla bağlı müəyyən narazılığın şahidi olduq.

***-Hazırda ölkəmizdə minimum əmək haqqı 300 manatdır. Bu məbləğ nə qədər artırıla bilər?***

-Ölkəmizdə minimum əmək haqqı, təqaüd və orta aylıq əmək haqqının artırılması labüddür. Burada problem başqadır. Belə ki, ölkədə məhsul bolluğu, rəqabətli mühit və onun gətirdiyi dividendlər olmasa, maaş və təqaüd artımının heç bir xeyri olmayacaq. Son 3-4 ildə minimum əmək haqqı 136 manatdan 300 manata qədər yüksəlib. Bu artım insanların güzəranına yaxşı təsir göstərdimi? Xeyr. Əksinə, inflyasiyanı sürətləndirdi, paralel olaraq qiymətlər kəskin artmağa başladı. Yəni, bu işdə tək maaş və təqaüdlərin artımı yetərli deyil. Əsas məhsul bolluğu və rəqabətli mühit yaratmaq lazımdır ki, manatın alıcılıq qabiliyyəti dəyərdən düşməsin.

***-Bu həftə 2022-ci ilin dövlət büdcəsinə təklif olunan dəyişikliklər Milli Məclisdə birinci oxunuşda qəbul olundu. Büdcədə ərzaq təhlükəsizliyi üzrə tədbirlərin təmin edilməsi üçün 193 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu vəsaitin hansı istiqamətlərə xərclənəcəyi gözlənilir?***

-Çox güman ki, ərzaq təhlükəsizliyi üzrə ayrılan vəsait ölkəyə gətirilən strateji məhsullara sərf olunacaq. Bunlar taxıl, dənli bitkilər ola bilər. Taxılın qiyməti kəskin bahalaşıb. Belə ki, üç il bundan əvvəl 1 tonu 180 dollar olan ərzaq buğdasının qiyməti 430-450 dollara qədər bahalaşıb. Bu baxımdan, həmin vəsait strateji məhsulların alınmasına xərclənəcək.

***-Bahalaşma hər kəsi narahat edən məsələlərdən biridir. Məlumdur ki, dünyada gedən proseslər də buna təsir edir. Bununla yanaşı hansı addımlar atılmalıdır ki, bahalaşmanın qarşısı alınsın?***

-Azərbaycanda dünyaya paralel olaraq bahalaşma gedir. Amma burada spesifik xüsusiyyətlər də var. Belə ki, ölkədə bahalaşmanın qarşısını ala biləcək orta və uzunmüddətli ən yaxşı dayanıqlı addım yerli istehsalın artırılmasıdır. Uzun illərdir ki, bununla bağlı ciddi addımların atılmasının şahidi olmuruq. Müəyyən irəliləyiş var, amma yetərli deyil. Bahalaşmaya qısa müddətdə, həmin an təsir edə biləcək addımlar ondan ibarətdir ki, ölkəyə xaricdən gətirilən ərzaq məhsullarının gömrük və vergi rüsumları ən azı ilin sonuna qədər sıfırlansın. Bu, qiymət artımının qarşısını ala biləcək əsas faktora çevrilə bilər.

***-Mövsümi meyvələrin qiymətinin baha olması da diqqət çəkən məsələdir. Kəndlərdə meyvənin qiyməti elə də baha deyil. Şəhərdə qiymətin bu qədər fərqli olmasının səbəbi nə ilə bağlıdır?***

-Bu il mövsümi meyvələrin qiyməti kəndlərdə də bahadır. Doğrudur, şəhərə nisbətən qiymətlər ucuzdur. Amma daşınma xərclərini və s. məsələləri üzərinə gələndə, Bakıda qiymətlər daha baha olur. Bu məsələdə kəndli də qınanmalı deyil. Kəndli öz məhsulunu ucuz sata bilməz. Belə ki, digər məhsulların hər birinin qiyməti qalxıb. Ona görə də məcburdur ki, məhsulu baha satsın. Çünki, mövsümi meyvələrdən qazanacaq pulu bir il xərcləyir. O baxımdan məhsulu baha satmağa çalışırlar ki, digər sahədə olan qiymət artımlarını konpensasiya edə bilsinlər.



***-Sizcə quru sərhədlərinin açılmaması nə ilə bağlıdır?***

-Quru sərhədlərinin bağlı olması absurddur. Bunu nə iləsə əlaqələndirmək mümkün deyil. Sərhədlər pandemiya ilə əlaqədar olaraq bağlanmışdısa, artıq bitib. Dünyada da quru sərhədlər açılıb. Azərbaycanda quru sərhədlərin açılmamasının səbəbi nədir, bilinmir. Hökumət tərəfindən səbəblərlə bağlı açıqlama da yoxdur ki, vətəndaşlarda təxminedici məlumat olsun. İndiki şəraitdə quru sərhədlər bağlı olmamalıdır. Qonşu ölkələrin heç birinin quru sərhədləri bağlı deyil.

***-Siz də çıxışlarınızda AZAL-ın qiymətlərinin baha olmasından, zərərlə işləməsindən və s. danışmısınız. Hamı AZAL-dan şikayət edir, amma heç nə dəyişmir. AZAL-da hansı dəyişikliklər olmalıdır?***

-AZAL-ın dərdi bir başqadır. AZAL monopolist və inhisarçı şirkət olduğundan, ya bu şirkət özəlləşdirilməlidir, ya da yerüstü xidmətlər ondan tamamilə alınmalıdır. Çox güman ki, hələ dövlət özəlləşməyə getməyəcək.Bu sahəyə çox böyük yatırımlar edilib, təyyarələr alınıb və s. Yerüstü xidmətlər isə AZAL-ın törəmə şirkətlərindədir. Paralel olaraq xarici şirkətlərin birbaşa bazara daxil olması ilə AZAL-ın maneəçiliyinin aradan qaldırılması mümkündür. Bu, tez bir zamanda həyata keçirilə bilər. Xarici şirkətlərin gəlməsi rəqabətli mühiti artıracaq. Bu isə AZAL-ı qiymətləri aşağı salmağa, yaxşı işləməyə məcbur edəcək. İndi AZAL-ın ağzı isti yerdədir. Belə ki, dotasiya verilir, dövlət hesabına təyyarələr alınır. Bazarda tək olduğu üçün istədiyi qiyməti diktə edə bilir.

***Anar Kəlbiyev***

# QMİ rəhbərliyinin böyük səhvi...

## Şeyxin biganəliyi Borçalıda İranın dini təsirini gücləndirb

***İranın Borçalıda "dini kanton" yaratmaq imkanı 2011-ci ildə - QMİ (Qafqaz Müsəlmanları İdarəsi - red.) təsir gücünü itirməyə başladığı dövrdə yarandı: Gürcüstanın 2003-cü ildən sonra dini icmaların dövlət nəzarətinə götürülməsi prosesində ilkin hədəfi Rusiya kilsəsinin təsirini azaltmaq və Acariya müsəlmanları idisə, dalğa 2009-cu ildə Borçalıya da çatdı və QMİ yalnız 2011-ci ilə qədər müqavimət göstərməyi bacardı; ya müqavimət göstərə bilməməkdən, ya da strateji yanlışların nəticəsində, yaxud hər iki səbəbdən Azərbaycan dini təsir gücünü itirdi, əvəzində İran aktiv şəkildə bölgəyə daxil oldu. Bu sözləri siyasi şərhçi Asif Nərimanlı Borçalıda bir qrupun əllərində Taleh Bağırzadənin fotosu ilə aksiya keçirmələrinə münasibət bildirərkən qeyd edib.***

"İran hələ 90-cı illərin sonu, 2000-ci illərin əvvəlində Qum və Məşhəddən Borçalıya dini emissarlar göndərir, şərtlərin yaranmasına hazırlaşırdı. Bölgədə Azərbaycanın dini təsirini İranın əvəzləməsində Gürcüstanın da öz maraqları var. 2018-ci ildə bu mövzuları bir az araşdırmışdım. Hələ o vaxt Borçalı bölgəsində İranın şeyx düzəltdiyi Mirtağı Əsədovun rəhbərliyində 500-dən çox aktiv iştirakçı var idi, indi sayları bir qədər də artıb. M.Əsədov 2011-ci ildə - proses başlayanda Azərbaycan vətəndaşlığından imtina edərək, Gürcüstan vətəndaşlığını qəbul etdi və sonra baş verənlər hər şeyin illərlə hazırlanan planın parçası olduğunu üzə çıxarır. Bölgədə dini təsirin itirilməsi Azərbaycanın ciddi strateji səhvi idi. Bundan sonra Borçalıya yenidən qayıtmaq da asan görünmür", - o bildirib.

Bu arada əslən Borçalıdan olan soydaşlarımız da sosial şəbəkələrdə bu bölgənin İranmeyilli qüvvələrin təsiri altına düşməsindən, radikal dini qrupların həmin bölgədə "at oynatmasından", öz tərəfdar kütlələrinin miqyasını getdikcə genişləndirməsindən narahatlıq ifadə ediblər.

Bizim QMi isə sözügedən mövzuda israrla susur. Başından bəri olduğu kimi...

Məsələ burasındadır ki, uzun müddətdir istər media, istərsə də cəmiyyətin tanınmış nümayəndələri həyəcan təbili çalmaqdadırlar: bu gün Borçalıda siyasi şiəliyin təbliği ilə bağlı dini moizələr oxunur, din öyrənmək istəyənləri Məşhədə və Quma aparırlar, onların maddi ehtiyacları qarşılanır. Vaxtilə heç kimin ağlına gəlməyən məzhəb ayrılığı bu gün Borçalını ələ keçirib. Bu işi əsasən İranın Gürcüstandakı səfirliyi və emissarlar həyata keçirirlər. Məscidlərdə əsasən İrandan gələn dini ədəbiyyat paylanır.

Lakin QMİ-dən həmin müddətdə də bircə dəfə belə olsun baş verənlərə reaksiya görməmişik.

"Marneulidə əhalinin 70 faizi şiələrdir. İran bu amildən istifadə edərək, moizəçilərini əsasən bu rayona göndərir. Vaxtilə rayonda təhsilin keyfiyyəti aşağı düşdü, gənclərimizin savadsızlığı artdı, nəticədə din amili önə çıxdı. İran bu vəziyyətdən istifadə edərək, bölgəyə girdi. Gənclərimizi Quma, Məşhədə dini təhsil almağa apardı, böyük maliyyə vəsaitləri alaraq, burada dini təsir gücü əldə etdi", - Marneulinin yaşlı sakinləri ötən il KİV-ə bildirmişdilər.

Ancaq QMİ-nin susqunluğu davam eləmişdi. Necə ki, bu gün də davam eləyir.

Halbuki sosial şəbəkələrdəki müzakirələrdən də aydın görünür ki, cəmiyyət və Borçalıdakı soydaşlarımızın ayıq kəsimi Hacı Allahşükür Paşazadənin rəhbərlik etdiyi qurumun bütün bu baş verənlər barədə nə düşündüyünü bilmək, öyrənmək istəyir. Şeyxülislamın sözügedən problemlə bağlı ənənəvi susqunluğunu davam etdirməsindən iki nəticəyə gəlmək olar: ya QMİ-nin hörmətli rəisi bu problemdən tamamilə xəbərsizdir (ki, düzünə qalsa, buna inanmaq elə də asan deyil), ya da Borçalıda yaşananların tam fərqində deyil, bəhs etdiyimiz məsələyə ciddi, önəmli bir məsələ kimi yanaşmır (ki, bu doğrudan da belədirsə, daha deməli heç bir söz qalmır).

Hər halda ümid edək ki, barı son baş verənlərdən sonra hörmətli Şeyx və onun rəhbəri olduğu qurum Borçalıda baş verənlərlə daha ciddi maraqlanacaq, QMİ-nin keçmiş səhvlərini düzəldəcək, öz nüfuzundan, əlaqələrindən faydalanaraq sözügedən bölgədə yaşayan soydaşlarımızı din pərdəsi altında özlərinin fərqli və məkrli planları naminə istifadə etməyə çalışan qrupların meydanının daha da genişlənməsinə imkan verməyəcək, eyni zamanda həmin qrupların təsir gücünün zərərsizləşdirilməsi üçün konkret işlər görəcək.

Ümid edək və gözləyək. Baxmayaraq ki, gözləmək üçün çox vaxt da yoxdur...



***Toğrul Əliyev***

# Dövlət qulluqçularının 9 mindən çoxu məsləhətçidir - STATİSTİKA



***Azərbaycanda dövlət qulluqçularının peşə bayramıdır. İqtisadçı Samir Əliyev dövlət qulluqçuları ilə bağlı bəzi statistik məlumatları açıqlayıb.***

İqtisadçı statistik məlumatların analizinə əsasən bildirib ki, dövlət qulluqçularının təxminən 35%-i müxtəlif səviyyəli məsləhətçi qismində işləyir:

"Yəni ölkədə dövlət qurumlarında 9 mindən çox məsləhətçi çalışır. Onların 13,4%-i baş məsləhətçi, 3,8%-i böyük məsləhətçi, 8,7%-i aparıcı məsləhətçi, 9,2%-i isə sadəcə məsləhətçidir".

Rəsmi məlumatlara görə, ölkə üzrə dövlət qulluqçularının ümumi sayı 26,7 min nəfərdir. Dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı 1274,1 manatdır.

İş stajı əsasında bölgüyə görə, dövlət qulluqçularının 7 %-i 1 ilədək çalışanlar, 23,1 %-i 1ildən 5 ilədək çalışanlar, 25,9 %-i 5 ildən 10 ilədək çalışanlar, 17,2 %-i 10 ildən 15 ilədək çalışanlar, 26,8 %-ni 15 il və daha çox müddətdə çalışanlar təşkil edir.

25 yaşadək dövət qulluqçuları 2,5 %, 25-29 yaşadək 13,3 %, 30-34 yaşadək 17,3 %, 35-39 yaşadək 15,1 %,40-44 yaşadək 12,2 %, 45-49 yaşadək 9,3 %, 50-54 yaşadək 8,7 %, 55-59 yaşadək 10,4 %, 60-64 yaşadək 9,6 %-dir.

Ümumilikdə dövlət qulluqçularının 72 %-i kişilər, 28 %-i qadınlardır.

# Xanlar Vəliyev müharibə iştirakçıları və qazilərlə görüşdü

***İyunun 23-də Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçuları, o cümlədən qazilərlə görüş keçirilib.***

Hərbi Prokurorluğun mətbuat xidmətindən "Unikal"a bildirilib ki, əvvəlcə qurumun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülüb, dünya şöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən əvvəl mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin müqəddəs və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimi Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev açaraq tədbir iştirakçılarını, bütün qaziləri və şəhid ailələrini 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib, onlara xoş arzularını ifadə edib. Hərbi prokuror bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyevin zəngin elmi bilikləri, müdrik düşüncəsi, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən planetimizi cənginə almış koronavirus pandemiyasına və müharibədən çıxmış ölkə olmağımıza rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Xanlar Vəliyev həmçinin qeyd edib ki, ölkəmizin sürətli tərəqqisində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Xanlar Vəliyev bildirib ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla bir qədər də zənginləşdirilib. Vətən müharibəsindən, qazanılan möhtəşəm qələbədən bəhs edən Xanlar Vəliyev Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti vəzifələrini layiqincə icra etmələrindən danışaraq əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi qeyd edib. Millətinə xidməti həyat amalına çevirmiş Prezident İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə hər zaman doğrultduğunu vurğulayan Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, müdrik rəhbər hərbi və siyasi-diplomatik yolla ölkəmizin əzəli ərazilərini işğaldan azad etməklə, növbəti vədini də yerinə yetirib. Dövlətimizin uğurları və Vətən müharibəsindəki şanlı qələbəmiz dövlət başçısının yürütdüyü siyasətin alternativsiz olduğunun təcəssümüdür.

Sonda Vətən müharibəsində iştirak edən şəxslərə hədiyyələr təqdim olunub, onlar isə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

## Koronavirusa yoluxanların sayı niyə artır? - Açıqlama

***"Pandemiya hələ bitməyib. Bunun bitməsi ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) raportu yoxdur".***

Bunu "Unikal"a açıqlamasında tanınmış həkim, tibb elmləri doktoru, professor Adil Qeybulla deyib. Həkim bildirib ki, ayrı-ayrı regionlarda mutasiya etmiş ştamların yeni dalğası hər an gözləniləndir:

""Omikron" heç də mutasiya edən sonuncu ştam deyil. Pandemiyanın təhlükəsi hələ də qalıb. Ona görə də karantin qaydalarının fərqində olmalıyıq. Bu qaydalar vəziyyətdən asılı olaraq yumşaldıla və ya sərtləşdirilə bilər. Qərarlar epidemoloji vəziyyətə uyğun olaraq verilir. Bəzi ölkələrdə koronavirusun yeni ştamlarının mutasiya variantlarının artması müəyyən narahatlıq doğurur. Buna qarşı tədbirlər görülür. Hələ pandemiyanı bitmiş hesab etməli deyilik".

Qeyd edək ki, ölkəmizdə gündəlik yoluxma sayının əvvəlki günlərlə müqayisədə artdığı müşahidə olunur.

***Anar Kəlbiyev***

## "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində birgə müəssisə yaradılıb

***"AzerTelecom" şirkəti tərəfindən Avropa ilə Asiyanı Azərbaycan vasitəsilə birləşdirən "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) fiber-optik infrastruktur layihəsinin icrası davam edir.***

Üç seqmentdən (Avropa, Azərbaycan və Asiya) ibarət iri miqyaslı layihənin Asiya seqmentini təşkil edən Azərbaycanla Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə "Transxəzər Fiber-Optik Kabel Xətti" layihəsi çərçivəsində layihənin operatorları - Azərbaycan tərəfdən "AzerTelecom", Qazaxıstan tərəfdən isə "Transtelecom" şirkətləri birgə müəssisə yaradıblar. "Caspian Fiber Optic Company" birgə müəssisəsi "Transxəzər Fiber Optik Kabel Xətti" layihəsinin tikintisi və istismarı ilə bağlı işlərin həyata keçirilməsinə xidmət edir.

Layihənin icrası çərçivəsində artıq beynəlxalq konsaltinq şirkətləri tərəfindən dəniz dibinin ilkin texniki araşdırılması aparılıb, layihənin texniki tələbləri tərtib olunub, təchizatçı seçimi üzrə tender prosesi yekunlaşıb. Kabel marşrutlarının sxemi, kabel stansiyalarının Azərbaycan və Qazaxıstan sahillərində qurulacaq torpaq yerləri müəyyən olunub. Tikintinin iki ilə tamamlanması planlaşdırılır. Sualtı kabel sisteminin reallaşdırılması dövlətlərarası sazişə müvafiq olaraq həyata keçirilir. "Transxəzər Fiber-Optik Kabel Xətti"nin dənizin dibi ilə uzunluğu 380 km, məlumat ötürmə gücü isə 16 terabit/s-dən çox olacaq.

"Rəqəmsal İpək Yolu" layihəsinin Asiya seqmentini Avropaya bağlayacaq Azərbaycan hissəsində də icra işləri sürətlə davam edir. AzerTelecom şirkəti tərəfindən Azərbaycan Dəmir Yolları QSC ilə əməkdaşlıq çərçivəsində ölkə daxilində dəmir yollarının mühafizə zolağı boyunca Şimal, Cənub və Qərb istiqamətlərində fiber-optik kabel xətlərinin tikintisi reallaşdırılır. Layihənin icrası üçün tələb olunan fiber-optik kabel və digər texniki avadanlıqlar təchiz olunub, ümumi uzunluğu 1000 km-dən çox olan kabel şəbəkəsinin tikintisinin artıq 110 km hissəsi (10%-dən çox) icra olunub. Tikintinin tamamlanması 2023-cü ilin ortasına planlaşdırılır.

"Rəqəmsal İpək Yolu" layihəsinin icrasının müxtəlif mərhələlərinə "Detecon Consulting", "DLA Piper", "Axiom", "PwC" və s. nüfuzlu beynəlxalq konsaltinq şirkətləri cəlb olunub.

Layihənin icrası ölkəmizin beynəlxalq imicinin, biznes mühitinin, iqtisadi inkişaf göstəricilərinin və beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşmasına töhfə verəcək, Asiya ilə Avropa arasında çoxterabitli həcmdə məlumatların ötürməsini təmin edəcək.

Layihə 2020-ci ildə ABŞ-da "Qlobal Strateji İnfrastruktur Liderlik Forumu"nda Asiyada beş ən yaxşı strateji infrastruktur layihəsindən biri seçilib.

# Əsabil Qasımovun 103 min manatlıq borcu...

## Ölkədən kənarda təkcə iki hotel üçün 46 milyon dollar xərcləyən "Karat holding" Azərbaycanda öz öhdəliyini yerinə yetirməyə "can çəkir"

***Yola salmaq üzrə olduğumuz həftə "Azərbaycan Dəmir Yolları" QSC ölkənin tanınmış un istehsalçısı olan "Karat Holding"i məhkəməyə verib.***

Məlumata görə, tərəflər arasında öhdəliklərlə bağlı problem yaranıb (qafqazinfo). Belə ki, stansiya xidmətlərinə görə yığımların tutulması baxımından ADY "Karat Holding" tərəfindən 103 076 manat ziyana düşdüyünü iddia edib. İddia Bakı Kommersiya Məhkəməsində icraata götürülüb. İşə hakim Zeynəb Axundovanın sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, "Karat Holding" 10-dan çox şirkəti özündə birləşdirən iri qurumdur. "Karat" MTK, "AzİnVest" tikinti şirkəti, "Karmen" dəyirmanı, makaron, kisə və quşçuluq fabrikləri, "Marina Plaza" oteli, "Premium" market məhz bu holdinqə daxildir. Mediada yayılan məlumatlarda "Karat Holding"in sabiq deputat Əsabil Qasımova məxsus olduğu deyilir. Belə ki, bu şirkətlər qrupu Milli Məclisin keçmiş üzvü tərəfindən 2006-cı ildə yaradılıb. 2010-cu ildə 79 saylı İmişli seçki dairəsindən deputat seçildikdən sonra Əsabil Qasımov biznes imperiyasını öz yaxınlarına tapşırmışdı. O, deputat olduğu müddətdə də holdinqə daxil olan şirkətlərin əksəriyyətində pay sahibi kimi "Karat Holding"ə ümumi nəzarəti həyata keçirdiyi bildirilirdi. Hazırda isə şirkətlər qrupuna Ə.Qasımovun qohumu İqdam Umudov rəhbərlik edir.

Ən maraqlısı isə odur ki, bu gün bir dövlət qurumu qarşısında 103 milyon manatlıq borcunu ödəməyən "Karat holding" vur-tut iki il öncə Azərbaycanın Moskvanın mərkəzində yerləşən "Bernikov" biznes mərkəzini satın almışdı. Özü də kifayət qədər böyük məbləğə!

Həmin vaxt bildirilirdi ki, sabiq deputatın holdinqi tikintisi yarımçıq qalan biznes-mərkəzə sahiblənmək üçün tenderdə qalib gəlib. Belə ki, "Karat holding" adıçəkilən biznes-mərkəz üçün 1,47 milyard rubl (21,3 milyon dollar) pul ödəmişdi. Bina Mokvanın Nikoloyamskaya 11 küçəsində yerləşir. Rusiyanın maliyyə dairələri 17 min kvadrat metr sahədə yerləşən biznes-mərkəzin yeni sahibi tərəfindən 200-250 nömrəlik otelə çevriləcəyi açıqlamışdı.

Bu da azmış kimi, "Karat Holding" Stavropol diyarının Yessentuki şəhərində "Voronej" və "İstoçnik" sanatoriyalarına da sahib olmuşdu. Şirkət 2017-ci ildə Kislovodsk şəhərində yerləşən "Akademiçeskiy" sanatoriyasına 25 milyon dollar sərmayə yatırmışdı.

Məsələ bununla da bitmir. Ötən il məlumat yayıldı ki, "Karat Holding" Moskvada tarixi tikililərdə yerləşən ticarət köşklərini sökərək yerində beşulduzlu otel tik-



məyə hazırlaşır. Həmin vaxt bu haqda Rusiyanın "Vedemosti" nəşri bildirirdi.

Qeyd edilirdi ki, sabiq deputatın holdinqi "Vasili Osipoviç Krasavin qardaşları ilə" kooperativinə məxsus olmuş və Moskvanın Taqansk rayonunda yerləşən bu ticarət köşklərini artıq sökməyə başlayıb.

Nəşr yazırdı ki, holdinqə daxil olan "Konreys" şirkəti həmin tikililərin yerləşdiyi ərazinin-Böyük Poluyaroslav döngəsində yerləşən 0.3 hektar torpaq sahəsinin mülkiyyətçisidir. Şirkət bildirir ki, həmin ünvanda yerləşən və ümumi sahəsi 2 min kvadratmetrə yaxın olan beş tikili artıq sökülüb. Şirkətin nümayəndəsi qeyd etmişdi ki, "Karat Holding" həmin binanı beş il əvvəl alıb. Holdinq əvvəlcə obyekti icarəyə verməyi planlaşdırıb, amma daha sonra biznesi qeyri-rentabelli hesab edərək onun yerində otel tikməyi qərara alıb. Şirkətdən layihənin təfərrüatlarını açıqlamamışdılar, amma onu demişdilər ki, tikinti meydançasında işlər artıq başlayıb. Otelin 2023-cü ildə istifadəyə verilməsi planlaşdırılır.

Daha bir maraqlı fakt: "Karat Holding"ə tikinti, qida, sənaye, turizm və ticarət sahəsində ixtisaslaşmış - "Karat" MTK, "İdeal" MMC, "İzmir" MMC (tikinti şirkətləri); "Azinvest" Tikinti Şirkəti; "Everest-M", "Şin Servis" (armatur alğı-satqısı); "Karmen" MMC (dəyirman və un alğı-satqısı); Hökmələdə Makaron Fabriki, Hökmələdə Kisə Fabriki; ASTEL MMC (Məhəmmədi, Mehdiabad və Şamaxıda Quşçuluq Fabrikləri), Taxıl Anbarları və Dəyirman Kompleksləri (Şəkidə, Kürdəmirdə, Marneulidə və Gürcüstanın müxtəlif bölgələrində); Gəncə Fatoğlu (un dəyirmanı); Bakı şəhəri Zərifə Əliyeva küçəsində 18 mərtəbəli iki "Marina Plaza" oteli; Zərifə Əliyeva küçəsində ikimərtəbəli restoran; Bakı şəhəri Səməd Vurğun küçəsində "Ağ Saray" Binası; Bakı şəhəri Xan Şuşinski küçəsi 12, İmran Qasımov küçəsi 16, Qulu Quliyev küçəsi 21, Süleyman Rüstəm küçəsi 61-də yerləşən 18 mərtəbəli dörd bina; İzmir küçəsi 7A və 7B-də yerləşən 19 mərtəbəli iki bina; Zərifə Əliyeva küçəsi 53-də yerləşən 23 mərtəbəli bir bina, Süleyman Rüstəm küçəsi 61-də yerləşən "Premium Market" daxildir.

İndi sual yaranır: təkcə son 2-3 ildə Rusiyada biznesini genişləndirmək üçün on milyonlarla dollar xərcləyən, Azərbaycanda isə saysız-hesabsız biznes layihələri olan Əsabil Qasımovun holdinqi, doğrudanmı, bir dövlət şirkəti qarşısındakı vur-tut 103 min manatlıq öhdəliyini yerinə yetirməkdə acizdir? Rusiyadan qeyri ölkələrdə də biznesini genişləndirmək üçün böyük pullar xərcləyən "Karat holdinq"dən bir dövlət şirkəti qanuni pulunu ala bilmək üçün niyə məhkəməyə üz tutmalıdır?!

***Sənan Mirzə***

# Xəzəri zəbt edən məmurlara qara xəbər...

## Buzovnada başlayan söküntünün miqyası genişlənəcəkmi?

***Yola salmaq üzrə olduğumuz həftə çoxlarının diqqətini bir o qədər də çəkməyən, əslində isə yetərincə diqqətəlayiq, eyni zamanda ətraflı münasibətə ehtiyac duyan bir xəbər yayıldı: Buzovnada dəniz sahilindəki qanunsuz hasar və tikililər sökülür!***

Bu barədə Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumatda bildirilirdi ki, dəniz sahili ərazilərdəki vəziyyətlə bağlı Buzovna sakinlərinin müraciətləri ilə əlaqədar bu ərazilərdə aparılan inventarizasiya zamanı müəyyən edilib ki, vaxtı ilə, 10-15 il əvvəl burada bəzi insanlar tərəfindən dəniz kənarlarının hasarlanması, sahilə keçidlərin bağlanması, həmçinin qədim qayalıqların zibillənməsi hallarına yol verilib ki, bu da haqlı narazılıqlara səbəb olur. Bəzi yerlərdə sakinlər qanunsuz olaraq əlavə torpaq sahələrini zəbt edərək öz həyətlərinə birləşdiriblər. Həm də dənizin geri çəkilməsi ilə əlaqədar sahilyanı ərazilər genişlənib.



Qeyd olunan qanunsuzluqların aradan qaldırılması, eləcə də ölkə başçısı cənab İlham Əliyevin Xəzər dənizinin sahilboyu ərazilərinin qanunvericiliyin tələblərinə uyğun olaraq bərpa edilməsi və insanların dəniz sahilinə sərbəst giriş-çıxışı təmin edilməsi ilə bağlı müvafiq Sərəncamının icrası məqsədi ilə səhər saatlarından etibarən Bakı Şəhər və Xəzər Rayon İcra Hakimiyyətlərinin, kommunal qurumların texnikaları və işçiləri tərəfindən Buzovna qəsəbəsində sahilyanı ərazilərdəki qanunsuzluqların aradan qaldırılmasına başlanılıb. Zəbt edilən torpaq sahələrinin hasarları, ərazidə bəzi sənədsiz tikililər, çimərlik ərazisinə daxil olmağa mane olan sədlər sökülür. Həmçinin kommunal xidmətlərin işçiləri tərəfindən qayalıq ərazilərin müxtəlif tullantılardan təmizlənməsinə başlanılıb.

Məlumatdakı bir cümlə ilə razılaşmamaq isə ümumiyyətlə mümkün deyil: "Xəzər dənizi Azərbaycan xalqına bəxş edilmiş bir nemətdir və onu qorumaq hər birimizin borcudur". Düzdür, burada sahil ərazisinin zibillənməməsi nəzərdə tutulurdu. Lakin Xəzər dənizini, onun sahillərini yalnız tullantılardan deyil, eyni zamanda müəyyən adamların iştahından, tamahından qorumağa ehtiyac var. Bəli, biz Azərbaycan xalqına bəxş edilmiş bir neməti bəzilərinin pul və vəzifə gücünə hasarlamasını, vətəndaşları az qala dənizə həsrət qoymasını nəzərdə tuturuq. Buzovnada dəniz sahilindəki qanunsuz hasar və tikililərin sökülməsi də bu mənada diqqətə və təqdirəlayiqdir.

Amma və lakin...

Yaxşısı budur, bir qədər əvvələ qayıdaq. Uzaq tarix deyil, cəmi bir neçə il əvvəl idi və o zaman xəbər yayılmışdı ki, dənizi hasarlayanları, xüsusilə qanunsuz olaraq dəniz kənarında villa sahiblərini yaxın zamanlarda böyük "sürpriz" gözləyir.Bildirilirdi ki, Xəzər dənizinin imkanlı məmurların girovluğundan geri alınması üçün ciddi işlər aparılır. "Demək olar ki, söküləcək hasarlar, villaların tam siyahısı hazırdır. Bununla da imkanlı şəxslər, oliqarxlar, yüksək çinli məmurlar zəbt etdikləri ərazilərdən çıxmağa vadar olacaqlar.Bu isə əbəs yerə deyil. Belə ki, ilin əvvəlindən Azərbaycanda dəniz sahilində torpaq sahələrini icazəsiz hasarlayan şəxslərə qarşı cəza tədbirləri sərtləşdirilib" deyə yerli KİV qeyd edirdi.

Məsələ burasındadır ki, "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2015-ci il 18 dekabr tarixli qanunun tətbiqi və "İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" qanunun tətbiq edilməsi barədə" 2000-ci il 29 avqust tarixli fərmanında dəyişikliklər edilməsi haqqında fərman imzalanmışdı. Dəyişikliklərə əsasən, Xəzər dənizinin Azərbaycana məxsus olan bölməsində sahilboyu 20-50 metr zolağın altında olan torpaq sahələri ilə bağlı tələblərin pozulmasına görə cərimələr müəyyənləşmişdi. Bu cərimələr dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərinin təmin edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının qərarı olmadan həmin torpaq sahəsində dənizin sahilinə gediş-gəlişin məhdudlaşdırılmasına görə də tətbiq olunacaqdı.

Lakin gözləntilər özünü doğrultmadı, demək olar, heç nə dəyişmədi: dənizi hasarlayan məmur-oliqarxlar hələ də öz işindədir - onların dənizkənarı ərazilərdəki villaları öz əzəmətli görünüşü ilə tikildikləri yerlərdə qalırlar, heç bir söküntüdən söhbət getmir.

Reallıq ondan ibarətdir ki, hazırda Xəzərin az qala boş sahil ərazisi qalmayıb, bütün əsas çimərlik zonaları tamamilə tutulub. Görünür, bu il də əvvəlki illərdə olduğu kimi paytaxt əhalisi çimməyə pulsuz çimərlik tapa bilməyəcək. Hündürlüyü 5-6 metrdən yüksək olan hasarların arxasından isə, hətta dənizi görmək mümkün deyil. Bir dəfə də yazmışdıq: Bakı buxtasının gözəlliyini yalnız Azərbaycanın fiziki xəritəsində görmək olar.

Onu da deyək ki, bu mövzu ilk dəfə hələ 2000-ci illərin əvvəlində gündəmə gəlmişdi; 2000-ci il yanvarın 13-də bununla bağlı sərəncam da imzalanmışdı. Sərəncamda deyilirdi ki, əhalinin çoxsaylı şikayətlərini, Xəzər dənizinin xalqa məxsus olduğunu əsas götürərək, dənizin 130 metrlik sahil sahəsində tikilmiş fiziki və ya hüquqi şəxslərə qanunsuz olaraq verilmiş sahələr ya inzibati, ya da məhkəmə qaydasında alınsın və insanların dəniz çimərliklərinə sərbəst giriş-çıxışı təmin edilsin.

Sonrakı illərdə problemi aradan qaldırmağa imkan verən hüquqi baza möhkəmləndirilsə də, oliqarx- məmurlar əhalinin dənizə girmə hüququnu məhdudlaşdırmağa davam edirlər. Bu, onların faktiki olaraq müvafiq qanunvericiliyə etinasız yanaşmasının nümayişidir.

Buzovnadakı söküntünün tam detallarını bilmirik, yalnız ona ümid edirik ki, orada, həqiqətən də, Xəzər sahillərini "ovlayan" məmurların imarətləri, villaları yıxılır, ələ keçirdikləri torpaqlar geri alınır. Bir də ümid edirik ki, bu proses yalnız Buzovna ilə məhdudlaşmayacaq, Xəzərin digər sahillərində də dənizi özününküləşdirənlərə nəhayət ki, yerləri göstəriləcək.

Hələliksə bu reallıqdır: təbiətin xalqımıza bəxş etdiyi gözəl bir nemətə "yiyələnən" bəzi məmur-oliqarxlar qanunları saya salmamaqda, aidiyyatı qurumlar isə onlara qarşı hüquqi addımlar atmaqda çarəsizdirlər. Və belə görünür, problemin köklü həll yolu bir çox məsələlərdə olduğu kimi problemə ölkənin ali rəhbərliyinin müdaxiləsidir. Yoxsa bu gedişlə xalqı Xəzərin üzünə həsrət qoyanların özbaşınalığı davam edəcək, bir azdan dənizi ya ancaq yuxuda görəcəyik, ya da ona heç olmasa tamaşa etmək üçün quş kimi qanadlanıb göyün üzünə qalxmaq, oradan aşağı baxmaq lazım gələcək...

***Toğrul Əliyev***



# Türk dövlətlərinin hərbi bloku yaradılır? - DETALLAR

***"İmzalanan sənədlər yaxın gələcəkdə Özbəkistan ilə Azərbaycan arasında hərbi texniki və hərbi təhsil sahəsində, o cümlədən müdafiə sənayesi sahəsində əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşəcəyini ehtimal etməyə əsas verir. Burada Azərbaycanən və Özbəkistanın ortaq birgə layihələr həyata keçirməsi də istisna edilmir".***

Bunu Milli.Az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.

O bildirib ki, Azərbaycan Prezidentinin Özbəkistan səfəri Türk Blokunun yaradılması istiqamətində ilkin addımlardan biri hesab edilə bilər:

"Özbəkistanın kifayət qədər ciddi hərbi texniki potensialı mövcuddur. Azərbaycanın da müdafiə sənayesi məhsulları Özbəkistan üçün kifayət qədər maraqlıdır. Ortada bir Türkiyə faktorunun olduğunu da nəzərə alsaq, o zaman Orta Asiya, Qafqaz və Türkiyə arasında maraqlı bir üçbucaq yaranır ki, bu da yaxın gələcəkdə Özbəkistanın Türk dövlətləri ilə əməkdaşlığının genişlənməsi bəlkə də Türk Dövlətləri Təşkilatı çərçivəsində hansısa bir hərbi blokun yaranmasını da istisna etməməliyik. Amma bu, gələcəyin işidir.

Hazırda regionda, Orta Asiyada, Avropada, Yaxın Şərqdə baş verən proseslər fonunda biz nəzərə almalıyıq ki, hər bir ölkə təhlükəsizlik baxımından özünü daha zəmanətli bir ittifaqda, birlikdə görməkdə maraqlıdır. Bu baxımdan da Özbəkistanın Azərbaycan və Azərbaycan üzərindən Türkiyə ilə daha sıx əlaqələr qurmaqda maraqlı olması heç də təəccüblü deyil.

Dili bir, dini bir, kökləri bir, mədəniyyəti bir olan xalqların, tərcüməçiyə ehtiyac duymadan bir-birini anlayan xalqların iqtisadi, siyasi, hərbi sahədə daha geniş miqyasda və dərindən əməkdaşlıq etməsi çox təbiidir. Bu (Azərbaycanla Özbəkistan arasında son təmaslar - red.) , gələcəkdə TURAN birliyinin, Türk birliyinin, Türk İttifaqının, Türk Blokunun ilkin toxumları kimi də dəyərləndirilə bilər".

***Təhməz Əsədov***

## Bu məktəblərə direktor təyinatına start verilir

***İyunun 24-dən şagird sayı 500-dək və direktor vəzifəsi vakant olan ümumi təhsil müəssisələrinə işə qəbul prosesi ilə bağlı sənəd qəbuluna başlanılır.***

Təhsil Nazirliyindən "Unikal"a verilən məlumata görə, müraciət etmək istəyən şəxslər zəruri sənədləri (kadrlar uçotunun şəxsi vərəqəsi, şəxsiyyəti təsdiq edən sənədin, təhsil haqqında sənədin və ona əlavənin, əmək kitabçasının surəti) çalışdıqları ümumi təhsil müəssisəsinin tabe olduğu Regional təhsil idarəsinə təqdim edə bilərlər.

Şagird sayı 150-dək olan ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul yalnız müsahibə yolu ilə, şagird 151-500 aralığında olan ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul müsabiqə (test və müsahibə) yolu ilə Regional təhsil idarələri tərəfindən həyata keçiriləcək.

Ötən il üzrə direktorların işə qəbulu üzrə test imtahanlarında müvafiq keçid balı toplamış, lakin müsahibəyə dəvət olunmamış namizədlər müvafiq prosesdə yalnız müsahibə mərhələsində iştirak edəcəklər.

## Əhmədbəyli-Füzuli-Şuşa yolu sürətlə tikilir

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən sürətlə davam etdirilir.***



Bu barədə "Unikal" Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə istinadən xəbər verir.

Yolun texniki göstəriciləri:
Yolun uzunluğu - 81.6 km;
Yolun texniki dərəcəsi - I;
Hərəkət zolaqlarının sayı - 4-6 ədəd;
Hərəkət zolağının eni - 3.5 m;
Torpaq yatağının eni - 21.5-29.5 m;
Hərəkəti hissəsinin eni - 14-21 m;
Yol çiyinlərinin eni - 3.75 m x 2.
Yerinə yetirilən iş:
- 137 müxtəlif diametrli su ötürücü boru - 7 200 p/m;
- 30 yeraltı keçid - 1110 m;
- 7 avtomobil körpüsü - 763 p/m;
- 7 avtomobil tuneli - 6358 m;
- 9 viaduk - 1980 m.

Viaduklar (körpü tipli nəqliyyat qurğusu):
1-ci viaduk - 57 km-də, 175 m;
2-ci viaduk - 61.6 km-də, 245 m;
3-cü viaduk - 62.5 km-də, 270 m;
4-cü viaduk - 65.1 km-də, 150 m;
5-ci viaduk - 69.67 km-də, 140 m;
6-cı viaduk - 70.2 km-də, ortalama 140 m (sol-70 m, sağ-210 m);
7-ci viaduk - 78.7 km-də, 295 m;
8-ci viaduk - 79.3 km-də, 185 m;
9-cu viaduk - 79.7 km-də, ortalama 380 m (sol-410 m, sağ-350 m).

Tunellər:
1-ci Tunel - 53.9 km-də, ortalama 3340 m (sol 3330 m, sağ-3350 m);
2-ci Tunel - 69.9 km-də, ortalama 315 m (sol 344 m, sağ-286 m);
3-cü Tunel - 71.55 km-də, ortalama 532.9 m (sol 515.6 m, sağ- 550.2 m);
4-cü Tunel - 73.7 km-də, ortalama 680.2 m (sol 679.8 m, sağ-680.6 m);
5-ci Tunel - 77.7 km-də, ortalama 540.1 m (sol 570 m, sağ-510.2 m);
6-cı Tunel - 78.35 km-də, ortalama 454.2 m (sol 431, sağ 507.8 m);
7-ci Tunel - 80.6 km-də, ortalama 495.1 m (sol 430, sağ-482.3 m).

# Milli Məclisdən Venesiya Komissiyasının rəyinə cavab

***Milli Məclisin İnsan hüquqları Komitəsi Avropa Şurasının Venesiya Komissiyasının "Media haqqında" qanunla bağlı rəyinə münasibət bildirib.***

İyunun 20-də Venesiya Komissiyasının açıqladığı rəydə Azərbaycanda ifadə azadlığı, insan haqlarına dair Avropa konvensiyasının təməl prinsiplərinə, xüsusilə 10-cu maddəsinə zidd hüquqi qadağalar, azad mətbuat əleyhinə gizli və dolayı normaların mövcudluğundan ehtiyatlanma kimi müddəalar yer alıb.

Milli Məclisin Komitəsindən həmin rəyə belə cavab verilib: "Komissiyanın konkret olaraq, "Media haqqında" qanunla bağlı rəy hazırlayan üzvləri ilə əlaqədar əhatəli məlumat təfərrüatı ilə bəllidir. Hazırda Komissiyanın tövsiyələri ölkə mediası və ictimaiyyət arasında müzakirə edilir. Təbii olaraq, Qanunun mahiyyəti ilə tanış olan və olmayan hər kəs münasibətini bildirir. Komissiyanın rəyini verdikt, yaxud sensasiya kimi təqdim etmək, reallığı deyil, subyektiv mülahizələri fürsət bilənlərin səyləri göz önündədir. Rəsmi açıqlamaya gəldikdə, AR Medianın İnkişafı Agentliyi öz mövqeyini VK-ya təqdim edib.

Komissiyanın əsas iradları nədir? Onlardan bəzilərinə toxunaq.

VK-nın rəyində sitat: "qanunun mediaya "ictimai nəzarətçi" rolunu səmərəli şəkildə həyata keçirməyə imkan verməməsi" ilə bağlı fikri təəccüb və təəssüf doğurur. Nəinki medianın, hər bir vətəndaşımızın ictimai nəzarətçi olması çağırışı-dövlətimizin ali hüquqi, siyasi iradəsidir və dəfələrlə bəyan edilib. Media Reyestrinə daxil edilməyin jurnalistlər üçün könüllü olması, çap mediası və onlayn media subyekti kimi fəaliyyət göstərmək üçün Agentliyə ərizə ilə müraciətə dair hər hansı müddəanın olmaması, qanunun 15.2-ci maddəsinin məzmununu qiymətləndirmədən 15.3-cü maddəsini şərh edilərkən redaktor və ya jurnalistin öz informasiya mənbəyini açıqlaması normasının ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınmasına aid olduğu, o da yalnız məhkəmə qərarı ilə mənbənin açıqlana bilməsi, digər hallarda jurnalistin informasiya mənbəyini açıqlamağa məcbur edilə bilməzliyinin qanunda aydın göstərilməsi, jurnalist vəsiqəsi və akkreditasiyası anlayışlarının eyniləşdirilməsinin yanlış olması, media subyektlərinin xarici şəxslər tərəfindən təsis edilməsi və xaricdən maliyyələşdirilməsinin qətiyyən istisna edilmədiyi, lakin onun dəqiq kvotalar əsasında həyata keçirilməsi və digər məqamlar Komissiyanının rəyində irəli sürülən iradlara cavabdır. Kontekstən çıxarılaraq şərh edilən 26-cı maddə, "çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından, qurumlardan icazə tələb olunmasına dair iddia layihə hələ müzakirə mərhələsində olarkən Komissiyaya ayrıca izahatda dəqiq hüquqi şərh verilmişdi, internet televiziyaların fəaliyyətinə heç bir məhdudiyyət nəzərdə tutulmadığı halda bu qadağaların ləğvinə çağırılması da eyni qəbildən olan nonsensdir. Qanunun sosial medianı, youtube kanallarını, bloqosfer və digər platformaları tənzimləmədəyi dəfələrlə izah olunmuşdur.



Rəydə ifadə azadlığı, insan haqlarına dair Avropa konvensiyasının təməl prinsiplərinə, xüsusilə 10-cu maddəsinə zidd hər hansı hüquqi qadağalar, "azad mətbuat" əleyhinə gizli və dolayı normaların mövcudluğundan ehtiyatlanmanın da heç bir əsası yoxdur. Mövcud rəqəmsal gerçəkliklə əslində zəif mətbuat milli informasiya məkanının zəbt edilməsinə səbəb olur. Lakin beynəlxalq və milli qanunvericilik informasiya amilinin geosiyasi silaha, dezinformasiyanın "kütləvi qırğın silahına" çevrildiyi bir şəraitdə hər gün çağırışlarla, yeni qanunların qəbulu ilə səciyyələnir.

Misal üçün, VK -nın ideal tövsiyəçi olduğu halda, Komissiya bir neçə il əvvəl Ukraynanın "Dezinformasiya ilə mübarizə haqda", "Təhsil haqda", "Dekommunizasiya" qanunlarını kəskin tənqid etmişdi. Üstəlik, Ukrayna Radasında Konstitusiyanın dəyişdirilməsini tələb etmişdi. Amma indi Avropa və Qərb özü dezinformasiya ilə bağlı məlum digər dövlətin bütün rəsmi informasiya mənbələrini qadağan edib.

Digər bir misal: Komissiya rəy hazırladığı bu günlərdə Venesiya Komissiyasının prezidenti Ermənistanda səfərdə olub, Ermənistan Konstitusiya Məhkəməsinin "hüquqi islahatların "çiçəklənməsi" ilə bağlı konfransında, digər qurumlarda məruzələr edib. Konstitusiya məhkəməsinin iflas etdiyi və tamamilə xaos yaşadığı Ermənistanda, Fransa-Strasburqda yerləşən qurumun ideal və doğru tövsiyələr verməsi çətin sınaqdır.

Məyusedici məqamlardan biri də odur ki, Venesiya Komissiyasının fəaliyyət praktikasında demokratik prosedurlara əsaslanaraq, hər hansı rəyi qəbul etməzdən əvvəl milli təsisatlarla əməkdaşlıq edə, o cümlədən həyata keçirilən azsaylı rəsmi görüş və danışıqların nəticəsində özlərinin müsbət mövqedən yanaşdıqları müddəaları sonradan neqativ planda göstərmələri dərin təəssüf doğurur.

Qeyd edilənlərlə yanaşı, onu də bildirmək istərdik ki, Venesiya Komissiyasının rəyində digər Media qanununun çoxsaylı maddələrinə münasibətin adekvatlığı- qəbul edilən Qanunun mahiyyəti və legitimliyini təsdiq edir.

Biz Venesiya Komissiyasının mücərrəd, siyasi və deklarativ xarakter daşıyan bir çox tövsiyələrindən təəssüfümüzü ifadə edirik. Bununla yanaşı, konstitusion qanunvericiliyin təkmilləşdirilləsi yönündə konstruktiv birgə əməkdaşlığa, müzakirə və dialoqa hər zaman açıq olduğumuzu da xüsusi vurğulamaq istərdik".

**6.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Gənclərin vətənpərvər ruhda tərbiyəsi dövlət siyasətinin əsas istiqamətidir

## Kamran Əsədov: "Hər bir şəhidin həyatı gənclərə örnək olmalıdır"

***44 günlük zəfər tariximiz gənc nəslin tərbiyəsində vətənpərvərlik ruhunun vacib yer tutduğunu bir daha təsdiqlədi. 28 il işğal altında qalan torpaqlarımızın azadlığı üçün gənclərimizin könüllü döyüşə yollanması gənclərin vətənpərvər ruhda böyüməsinin dövlət gənclər siyasətinin əsasını təşkil etməli olduğunu sübut etdi.***

Bəs görəsən gənc nəslin vətənpərvər ruhda tərbiyəsi üçün təhsil müəssisələrinin üzərinə hansı iş düşür?

Təhsil eksperti Kamran Əsədov deyir ki, təhsil müəssisələrində təlim-tərbiyə işinin düzgün təşkili mühüm əhəmiyyət kəsb edir. Çünki, məktəb təkcə savad vermir, həm də dövlətə, cəmiyyətə layiqli vətəndaş yetişdirir. Həmsöhbətimiz deyir ki, gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsi, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin aşılanması təhsil müəssisələrinin prioritet siyasəti olmalıdır. K. Əsədov deyir ki, "min dəfə eşitməkdənsə bir dəfə görmək" məsəli, şagirdlərə vətənpərvərlik məhz qəhrəmanların dilindən anladılmaldır: " 44 günlük müharibədə zəfər tariximizi yazan qazilərimizlə şagirdlərin görüşləri təşkil olunmalı, onlar döyüşlərdə göstərdikləri şücaəti gənc nəslə danışmalıdırlar. Qəhrəman, vətənpərvər insanların məktəblərə dəvət olunması, onların yetişməkdə olan nəsillə təmasda olması mühüm əhəmiyyət kəsb edir. Gənc nəsil onları dinləyərək o ruhda tərbiyə olur, vətən anlayışının nə qədər müqəddəs məhfum olduğunu dərk edir".



K. Əsədov bildirir ki, bu gün məktəblərdə "Zəfər tarixi" dərsliyinin tədrisi də mühüm əhəmiyyət kəsb edir: " Amma gənclərin vətənpərvərlik tərbiyəsini yalnız bir fənnin tədrisi ilə məhdudlaşdırmaq olmaz. Bütün fənlərin tədrisində, xüsusilə də humanitar-ictimai fənlərin tədrisində vətənpərvərlik tərbiyəsi aşılanmalıdır. Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin, beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət xadimlərinin şəxsi nümunələri də şagirdlər üçün əsl həyat, tərbiyə məktəbidir. Bundan əlavə hərbi hazırlıq dərslərinə diqqət artırılmalıdır".

K. Əsədov şəhid ailələri ilə gənc nəslin görüşlərinin keçirilməsinin də vacib olduğunu, bunun gənc nəslin tərbiyəsində vətənpərvərlik ruhu oyatdığını söyləyir: "Böyüməkdə olan gənc nəsil tariximizi, torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş qəhrəmanlarımızı tanımalıdır. Onlar şəhidlərimizin ailələrini ziyarət etməklə belə övlad böyüdüb tərbiyə edən valideynlərlə görüşməlidirlər. Qəhrəmanlarımızın keçdiyi şərəfli döyüş yolu hər bir gəncə örnək olmalıdır.

Ekspert qəhrəman qazilərimizin döyüş yolu ilə bağlı inşa müsabiqələrinin keçirilməsinin də vacib olduğunu söyləyir: " 44 günlük müharibənin hər günü yox, hər saatı şagirdlərimizə örnək olaraq çatdırılmalıdır. Tarix dərsliklərində elə faktlar olurdu ki, şagirdlərə öyrədəndə əziyyət çəkirdik. Məsələn, şagirdlərə xarici ölkələrin hərb və döyüş tarixindən nümunə gətirirdik. Artıq Prezident İlham Əliyevin özü Azərbaycanı bütövləşdirən və gücləndirən bir şəxsiyyətdir. Şagirdlərə qədim dünya tarixindəki Roma və digər dövlətlərin ordusundan danışırdıqsa, bundan sonra Vətən müharibəsində iştirak edən generallarımızın da hər biri şagirdlərimizə çatdırılacaq. Yalnız dərsliklərdə yox, həmçinin, müxtəlif əsər və filmlərdə qəhrəmanlıq tariximizi əks etdirməliyik. Gənclərimiz Polad Həşimovun həyatından və döyüş yolundan nümunə götürməlidirlər. Bu günə qədər tarix dərsliklərimizdə daha çox məğlubiyyət ruhunda və ərazi itkisi fonunda tarixi faktları qeyd etmişik. İndi isə İkinci Qarabağ müharibəsində yaşananlarla bağlı yeni bir nümunə olacaq".

Təhsil Nazirliyindən isə gənc nəslin vətənpərvər ruhda tərbiyyəsi üçün silsilə tədbirlərin təşkil olunduğunu bildirdilər. Nazirlikdən verilən məlumata görə, hazırlanmış müvafiq plana uyğun olaraq məktəblilər arasında "Şuşa Qarabağın tacıdır-Qarabağ Azərbaycandır!" mövzusunda inşa yazı, "Əziz Şuşa, sən azadsan!", Əziz Şuşa, biz səni dirçəldəcəyik!" mövzusunda şeir, "Qarabağ zəfəri!" adlı rəsm müsabiqələri keçirilmiş, qaliblər mükafatlandırılmışdır. Şuşa rayonun Uşaq-Gənclər İnkişaf Mərkəzində dərnək üzvləri və pedaqoji kollektivin iştirakı ilə "Qarabağ milli sərvətimizdir" mövzusunda "dəyirmi masa" təşkil edilibdir. Malıbəyli kənd 1 nömrəli tam orta məktəbində "Qarabağ və işğaldan azad olunmuş bölgələrin tarixi, mədəni abidələri və tanınmış şəxsiyyətləri"mövzusunda videodərs keçirilmişdir. Rayonun bütün məktəblərində Azərbaycan Ordusunun şanlı Qələbəsinə həsr olunmuş " Qələbə dərsləri" keçirilməkdədir. Şagirdlərə vətənpərvərlik hisslərini daha dərindən aşılamaq məqsədilə rayonun ümumi təhsil məktəblərində hərbçilərlə - Xankəndi şəhər 4 nömrəli tam orta məktəbdə "Azərbaycan Bayrağı" ordenli polkovniklər Xətai Baxışov, Hikmət Ağayev, Əjdər Qurbanov, Qarabağ muharibəsinin fəal iştirakçısı Azay Kərimov, 3 nömrəli tam orta məktəbdə aprel döyüşləri zamanı qəhrəmancasına döyüşən Kamil Musəvi ilə görüşlər keçirilib. Belə görüşlər davam olunur. Həmçinin əvvəllər rayonlarımızın işğal tarixini şagirdlərə öyrədən müəllimlər bu gün həmin torpaqların azad edilməsindən danışırlar. Eyni zamanda, əvvəllər Birinci Qarabağ müharibəsində məğlubiyyətimizin səbəblərini izah edən pedaqoqlar indi Qələbəmizdən, onu qazanan döyüşçülərimizin misilsiz qəhrəmanlıqlarından söhbət açırlar.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Parlament nümayəndə heyəti Qırğızıstanda səfərdədir

***Azərbaycanın parlament nümayəndə heyəti Qırğızıstanda rəsmi səfərdədir.***

"Unikal" xəbər verir ki, Qırğızıstanın Çolpon-Ata şəhərində "Parlament Diplomatiyası - Etimad və Tərəfdaşlığın Əsası" mövzusunda TÜRKPA-nın 11-ci plenar iclası işə başlayıb. İclas bu gün və sabah davam edəcək.

Tədbir üzv parlamentlər və Özbəkistan Ali Məclisinin Senatının sədrləri, Türkmənistan və Macarıstan parlamentlərinin nümayəndə heyətləri, beynəlxalq təşkilatların, Türk əməkdaşlıq qurumlarının, elm və təhsil dairələrinin nümayəndələrini bir araya gətirir.

Plenar iclasda təşkilatın adının dəyişdirilməsinə dair qərarın qəbul edilməsi və daimi komissiyaların sənədlərinin, eləcə də model qanunun qəbul edilməsi gözlənilir.

İclasda iştirak edəcək Azərbaycan nümayəndə heyəti Qırğızıstana yollanıb. Nümayəndə heyətinə Milli Məclisin sədri Sahibə Qafarova rəhbərlik edir.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinə deputatlar Hikmət Babaoğlu, Əhliman Əmiraslanov, Ağalar Vəliyev, Cavanşir Feyziyev, Nizami Cəfərov, Məlahət İbrahimqızı və Sədaqət Vəliyeva daxildirlər.

# "Ağalının 428 sakini yurda qayıtmaq istəyir" - Komitə sədri

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri xanım Dragana Koyiç ilə görüşüb.***



Komitədən "Unikal"a verilən xəbərə görə, məcburi köçkünlərin qayıdışı ilə əlaqədar həyata keçirilən layihələrdə beynəlxalq təşkilatların, həmçinin BQXK-nın iştirakının əhəmiyyəti qeyd edilərək bildirilib ki, Dövlət Komitəsi bu mərhələdə də əməkdaşlığın səmərəli olacağına böyük ümid bəsləyir.

İşğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin icra edildiyi, yeni salınan müasir tipli yaşayış məntəqəsinə əhalinin köçürülməsinə hazırlıq görüldüyü xatırladılaraq diqqətə çatdırılıb ki, kəndin 428 nəfər sakini arasında keçirilən sorğu zamanı onların böyük əksəriyyəti doğma yurda qayıtmaq istəyini ifadə edib.

Dragana Koyiç rəhbəri olduğu nümayəndəliyin fəaliyyəti haqqında məlumat verib, BQXK son dövrlərdə öz fəaliyyətini genişləndirdiyini, işə yeni əməkdaşlar cəlb edildiyini söyləyib.

Görüşdə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin sabiq rəhbəri xanım Arian Bauer də iştirak edib. Dövlət Komitəsinin sədri fəaliyyət dövrü ərzində göstərdiyi xidmətlərə görə xanım Arian Bauerə təşəkkür edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

## "Qudyalçay" qum-çınqıl yatağına 48 min manatdan çox ziyan vurulub



***Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində vətəndaşların müraciətləri və səlahiyyətli dövlət qurumlarının məlumatları əsasında Quba rayonu ərazisində qanunsuz qum-çınqıl hasilatı və Lerik rayonu ərazisində isə torpaq sahəsinin qanunsuz zəbt edilərək həmin ərazidə qanunsuz tikinti işlərin aparılması faktları ilə bağlı araşdırmalar aparıb.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, Araşdırmalarla Quba rayonu ərazisində "Qudyalçay" qum-çınqıl yatağında vətəndaş Qafar Rzayevə ayrılmış ərazidə kənar şəxslər tərəfindən qanunsuz qum-çınqıl hasilatı işlərinin aparılması nəticəsində 48 min 735 manat ziyan dəyməsi müəyyən edildiyindən, fakta görə Cinayət Məcəlləsinin 188.1 (torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma) 255.1 (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün Baş Prokurorluğun İstintaq idarəsinə göndərilib.

Bundan başqa, Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzinin Lerik rayonu ərazisində yerləşən Vizəzəmin meşəbəyliyinin vəzifəli şəxsi tərəfindən qulluq mənafeyinə zidd olaraq mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsinin özbaşına tutulması, həmin ərazidə tikinti işlərinin aparılması faktına görə Cinayət Məcəlləsinin 188.1 və 308.1-ci maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün Lerik rayon prokurorluğuna göndərilib.

## Azərbaycan pilotları Türkiyədə tapşırıqları uğurla icra ediblər

***Türkiyənin Konya şəhərində keçirilən "Anadolu Qartalı - 2022" beynəlxalq taktiki-uçuş təliminin növbəti mərhələsi yerinə yetirilib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat evrilib. Bildirilib ki, təlimin planına uyğun olaraq Azərbaycan Hərbi Hava Qüvvələrinin uçuş heyəti şərti düşmənin hava məkanına daxil olaraq qarşıya qoyulan tapşırıqları uğurla icra edib.

Həmçinin pilotlarımız Türkiyə Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələrinin hərbi qulluqçuları ilə birlikdə mübadilə uçuşlarını həyata keçiriblər.

Təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilir.

## Qabiliyyət imtahanı verəcək şəxslərin nəzərinə

***Dövlət İmtahan Mərkəzi (DİM) qabiliyyət imtahanlarında iştirak etmək istəyən konsertmeysterlərə müraciət edib.***

DİM-dən "Unikal"a verilən məlumata görə, musiqi sənəti üzrə xüsusi qabiliyyət imtahanlarında fərdi konsertmeyster kimi iştirak edən musiqiçilər 23 iyun tarixindən etibarən https://eservices.dim.gov.az/wpfqab/ linki vasitəsilə qeydiyyatdan keçib, konsertmeysterin buraxılış vərəqəsini çap edib götürərək imtahan binasına gəlməlidirlər. Bir konsertmeyster bir növbə ərzində ən çoxu üç abituriyenti müşayiət edə bilər. Konsertmeysterlər ali təhsil müəssisələrinin və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən aşağıdakı ixtisasları üzrə keçirilən imtahanlarda iştirak etmək üçün qeydiyyatdan keçməlidirlər.

Konsertmeysterlər əvvəlcə https://ekabinet.dim.gov.az// linkinə daxil olub şəxsi kabinet (kabineti olmayanlar) açmalıdırlar. Şəxsi kabinet açdıqdan sonra https://eservices.dim.gov.az/wpfqab/ linkinə daxil olub şəxsi kabinetin istifadəçi adı və parolunu daxil etməklə konsertmeysterlərin qeydiyyat sisteminə daxil olmalıdırlar. Sistemə daxil olduqdan sonra "əlavə et" düyməsinə basmaqla açılan pəncərədə konsertmeysteri olduğu abituriyentin iş nömrəsini daxil edib "Axtar" düyməsini basmaq lazımdır. Abituriyentin məlumatları yükləndikdən sonra "Yadda saxla" düyməsini basmaq tələb olunur.

Abituriyentləri əlavə edib "Çap et" düyməsini basmaqla buraxılış vərəqəsini çap etmək lazımdır.

# AQTA bu müəssisələrdə yoxlama keçirdi - Pozuntular aşkarlandı

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) növbəti monitorinqi çərçivəsində şəkər tozu və qənddə kükürd dioksid (SO2) miqdarının müəyyən edilməsi ilə bağlı agentliyin regional bölmələri tərəfindən ticarət şəbəkələrindən 33 istehsalçıya məxsus ümumilikdə 67 nümunə götürülüb.***



"Unikal" xəbər verir ki, nəticələrə əsasən, nümunələrin 7-də kükürd dioksid aşkarlanmayıb, 36-da SO2-nin kütlə payı beynəlxalq təcrübədə müəyyən edilmiş normaya uyğun olub, 12 istehsalçı üzrə 24 nümunədə kükürd dioksidin kütlə payı normadan artıq olub.

Bununla əlaqədar sınaq nəticəsində uyğunsuzluq aşkarlanmış 6 müəssisədə ("Bolluq" MMC, "Aysu Qida Sənaye LTD" MMC, "Əmin Qida Sənaye" MMC, "Şam Fi İnternational Trading Company" MMC, "Şüvələn Şirniyyat" ASC və fiziki şəxs Qəmbərov Rauf Rəfi oğlu) yoxlamalar keçirilib.

Belə ki, Samux rayonunda fəaliyyət göstərən fiziki şəxs Qəmbərov Rauf Rəfi oğluna məxsus şəkər istehsalı müəssisəsində aparılmış yoxlama zamanı sahibkar tərəfindən verilən izahatda uyğunsuzluq aşkar edilmiş partiyanın kiçik miqdarda istehsal edildiyi və artıq satışda olmadığı bildirilib.

"Bolluq" MMC-də aparılan yoxlama zamanı məhsulun istehsalı prosesində pozuntular aşkar edildiyinə görə sahibkar barəsində inzibati tədbir görülüb. Monitorinq zamanı uyğunsuzluq aşkarlanmış məhsul partiyasının həmin şirkət tərəfindən istehsal edilməsinə dair təsdiqedici sənədlərə əsasən, sözügedən partiyaların ticarət şəbəkəsindən geri çağırılması ilə bağlı "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar" qəbul edilib.

"Aysu Qida Sənaye LTD" MMC-də sanitariya norma və qaydalarına, gigiyena normativlərinə tam əməl edilməməsi səbəbindən sahibkar barəsində inzibati tədbir görülüb. Uyğunsuzluq aşkarlanmış məhsul partiyasının ticarət şəbəkələrindən geri çağırılması ilə bağlı "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar" qəbul olunub.

Sabirabad rayonunda fəaliyyət göstərən "Əmin Qida Sənaye" MMC-də aparılan yoxlama zamanı müəssisənin müxtəlif istehsalçı müəssisələrdən alınan qəndlərin qablaşdırılması ilə məşğul olduğu müəyyən olunub. Yoxlama çərçivəsində sözügedən partiyanın ticarət şəbəkəsindən geri çağırılması ilə bağlı qərar qəbul edilib. Eyni zamanda hazır məhsullardan təkrar nümunələr götürülərək müayinə məqsədilə laboratoriyaya təqdim edilib.

"Şüvələn Şirniyyat" ASC-də aparılan yoxlama zamanı məhsulların etiket məlumatlarında uyğunsuzluq aşkar edilməsi ilə əlaqədar sahibkar barəsində inzibati tədbir görülüb. Hazır məhsuldan nümunələr götürülərək müayinə məqsədilə laboratoriyaya təqdim edilib. Bundan əlavə, monitorinq zamanı uyğunsuzluq aşkar edilmiş məhsul partiyalarının ticarət şəbəkələrindən geri çağırılması ilə bağlı qərar qəbul edilib.

Bundan əlavə, tərkibində kükürd dioksidin kütlə payı normadan artıq müəyyən edilmiş məhsullarla əlaqədar nümunələr götürülmüş 4 ticarət mağazasında? Şəmkir rayonunda fəaliyyət göstərən "El", "Zirvə" və "Zümrüd" marketlərdə və Xaçmaz rayonunda fəaliyyət göstərən "Euro" marketdə yoxlamalar keçirilib. Yoxlama çərçivəsində sözügedən məhsul partiyalarının satışının qadağan edilməsi ilə bağlı "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar"lar qəbul olunub, eyni zamanda həmin məhsullardan götürülən təkrar nümunələr laboratoriyaya təqdim edilib.

# Məktəb direktoru niyə özünü öldürmək istədi? - ŞOK İDDİA

***Ötən gün Gəncədə məktəb direktoru intihara cəhd edib. Yerli mətbuatda yayılan məlumata görə, İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbin direktoru Mətanət Qarayeva 14 ədəd dərman həbi içərək özünü öldürmək istəyib. O dərhal xəstəxanaya çatdırılıb və tibbi yardım göstərilib. Direktorun həyatı xilas edilib.***



Direktorun özünü öldürmək istəməsinin səbəbini öyrənmək üçün onun çalışdığı məktəblə əlaqə saxladıq. Məktəbin direktor müavini Tahirə Həsənova Modern.az-a açıqlamasında bildirib ki, M.Qarayeva Gəncə Regional Təhsil İdarəsinin basqılarına dözməyərək, özünü öldürmək istəyib.

İddiaya əsasən, təhsil idarəsindən direktora işdən çıxması üçün ərizə yazmağı tapşırılıb. Lakin o, buna əməl etmədikdə, təzyiqlə üzləşib. "Həm müəllim kollektivi, həm də valideynlər direktorumuzdan razıdırlar, sadəcə təhsil idarəsi öz adamını məktəbə təyin etmək üçün Mətanət müəlliməyə basqılar etdi, o da belə yola əl atdı, indi xəstəxanada reanimasiyadadır, sistemlər qəbul edir", - deyə direktor müavini vurğulayıb.

Gəncə-Daşkəsən regional Təhsil İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Ramilə Məmmədova Modern.az-a bildirib ki, səslənən iddialar həqiqəti əks etdirmir. "Biz direktorun ailəsilə əlaqə saxlamışıq. Onlar bildirdilər ki, direktor içdiyi dərmanın dozasını artıq qəbul etdiyi üçün zəhərlənib, yəni intihar etməyib". R.Məmmədova qeyd edib ki, hazırda məsələ ilə bağlı araşdırmalar gedir.

# Rayonlarda meliorativ tədbirlər davam edir

***Qubada meliorativ tədbirlər davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Quba ölkəmizin ən böyük meyvəçilik rayonlarından biridir. Ötən il rayonda məhsulverən 14 min hektar meyvə bağından 110 min ton meyvə yığılıb.***

Bu isə əvvəlki illərlə müqayisədə 10-15 faiz artım deməkdir. Məhsuldarlığın artması ilk növbədə suvarma suyundan asılıdır. Heç kəsə sirr deyil ki, keyfiyyətli və bol məhsul əldə etmək üçün suvarma suyu ən vacib şərtlərdəndir. Cari ildə təsərrüfat sahiblərini fasiləsiz suvarma suyu ilə təmin etmək məqsədi ilə Quba Suvarma Sistemləri İdarəsi tərəfindən lazımi tədbirlər görülüb. Belə ki, rayon əazisində suvarılan 26 min 33 hektar sahənin suvarılmasını təmin edən torpaq kanallar lil və kol-kosdan təmizlənib eləcə də hidrotexniki qurğular cari təmir edilib.

Mövsüm ərzində hər hansı çətinliyin yaranmaması üçün Quba Suvarma Sistemləri idarəsi tərəfindən sahilbərkitmə işləri də aparılıb. Bu da öz növbəsində suvarma suyundan səmərəli şəkildə istifadə etməyə imkan verir. Həcminin Qudyalçay və Qusarçayın rayon ərazisindən keçən hissəsində bəndvurma işlərinə başlanılıb.

Quba Sistemləri İdarəsindən verilən məlumata görə, son illər iqlim dəyişikliyi ilə əlaqədar şimal bölgəsindəki çaylarda suyun həcminin azalması müşahidə edilir. Bu da öz növbəsində yay aylarında suvarma suyuna olan tələbatı ödəməkdə müəyyən çətinliklər yaradır. Lakin tezliklə respublika ərazisində tikiləcək 10 su anbarının 3-ü Qubada inşa olunacaq. Bununlada yaşanan çətinlik tamailə aradan qalxacaq. Belə ki, qış aylarında anbara toplanan sudan yaz və yay aylarında suvarma məqsədi ilə istifadə ediləcək.

Baş Mil-Muğan Kollektoru qrunt sularını xəzər dənizinə axıdır. Dilqəm Şərifov bildirib ki, 1994-cü ildə yaradılan Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsinin yaradılmasında əsas məqsəd Kür-Araz ovalığından qrunt sularını Baş Mil-Muğan Kollektoru vasitəsilə maneəsiz öz axımı ilə Xəzər dənizinə axıtmaqdır. Eyni zamanda kollektorun su tullayıcı qabiliyyəti də mövcuddur. Belə ki, kollektor daşqınlar və su basmalar zamanı artıq suları Xəzər dənizinə sərbəst şəkildə axıdır. İdarə tərəfindən kollektor vasitəsi ilə hər il dənizə 1 milyard 300 milyon kub metr su axıdılır. Ötən il idarə üzrə bu rəqəm 1 milyard 650 milyon kub metr olub. Həmin suların tərkibində minerallıq 5-6 milli qram litr təşkil edib. Atılan duzun miqdarı isə 9 milyon 800 ton olub.

Baş Mil-Muğan Kollektorunun istifadəyə verilməsi bu günə qədər 262 min hektar xidməti ərazidə şoran torpaqların yuyulmasına səbəb olub. Artıq kollektorun sağ və sol sahilində yerləşən torpaqlar münbit bir torpağa çevrilib. Bu torpaqlarda əkin işləri aparılır və pambıq, taxıl, yonca kimi kənd təsərrüfatı bitkiləri əkilir. İdarənin əsas funksiyalarından biri də balansda olan mövcud kollektor-drenaj sistemlərini, hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaqdır. Bunun üçün hər il hidrotexniki qurğularda, su buraxıcılarda və kollektor-drenaj şəbəkələrində cari və əsaslı təmir işləri aparılır. Ötən il 54 ədəd hidrotexniki qurğuda cari təmir, ondan 3 ədədində isə əsaslı şəkildə təmir işləri aparılıb.

Qeyd edək ki, Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsi Salyan, Sabirabad, Neftçala və Saatlı rayonlarına xidmət edir. Baş Mil-Muğan Kollektorunun ümumi uzunluğu 141 km-dir.

Samur Baş Hidroqovşağında təmir işləri görülüb. Dilqəm Şərifov bildirib ki, hazırda ölkəmizdə suburaxma qabiliyyəti 50 m?/s-dən çox olan 17 hidroqovşaq mövcuddur. Bu qurğulardan biri, xüsusi əhəmiyyətə və eyni zamanda maraqlı tarixə malik olan Azərbaycan-Rusiya sərhədində, Qusar rayonu ərazisində yerləşən Samur Baş Hidroqovşağıdır. İlk baxışdan adi görünən bu qurğu Bakı və Abşeron yarımadasını 75 faiz içməli su ilə təmin edir. Şimal bölgəsindəki 6 rayon rayonun suvarma suyu ilə 100 faiz təmin edilməsi də məhz Samur Baş Hidroqovşağının hesabına həyata keçirilir.

1955-ci ildən istismarda olan qurğunun tikintisinə 1939-cu ildə başlanılıb. O zaman 108 km uzunluğunda olan kanal əllə qazılıb. İkinci dünya müharibəsinin başlaması ilə dayanan tikinti işlərinə 1947-ci ildə yenidən start verilib və 8 il sonra qurğu istifadəyə verilib. Uzun illər istifadə edilən hidroqovşağın Azərbaycanın müstəqilliyinin ilk illərində əsaslı təmirə ehtiyacı vardı. Ulu öndər Heydər Əliyev ilk xarici sərmayəni melorasiya sahəsinə yönəltməklə bu qurğunun da beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına start vermişdir.



Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına da kəskin ehtiyac duyulurdu. Prezident İlham Əliyev meliorasiya sahəsinə göstərdiyi qayğı nəticəsində bu layihə çərçivəsində Azərbaycan-Rusiya sərhədində yerləşən, Samur çayı üzərindəki Baş Hidroqovşaq, Baş Suqəbuledici və Samur-Abşeron kanalının ilk 50 kilometrlik hissəsi əsaslı təmir edilmiş, həmçinin ən müasir standartlara cavab verən Xanarx kanalı, Baş Sudurulducu Qurğu və 188 kilometr uzunluğunda təsərrüfatlararası beton kanallar inşa olunmuşdur.

Qurğunun əhəmiyyəti nəzərə alınaraq Samur Abşeron Kanalı İstismar İdarəsinin əməkdaşları tərəfindən mütamadi olaraq Baş Hidroqovşaqda cari təmir işləri aparılır. Eyni zamanda son dövrlər qurğunun yerləşdiyi ərazidə abadlıq işləri görülüb, inzibati bina əsaslı təmir edilib və ərazidə müasir işıqlandırma sistemi qurulub.

***Hüseyn İsgəndərov***



# Vətənə bağlı oğul

***Vətənə məhəbbət Amalın qanında, canında idi, həyatının mənasını, dünyanın bütün gözəlliyini onun müqəddəsliyinə tapınıb yaşamaqda gördü. Elə məhz buna görə də ömrünün 19-cu ilində onun yolunda şəhid olmağa ilahi bir sevginin qanadlarında yolandı. İkinci Qarabağ müharibəsində "Təki Vətən yaşasın",-deyə yağı düşmənlə Zəferimiz naminə ölümsüzlüyə qovuşana qədər vuruşdu. Özü cismən həyatdan getsə də, adı şanlı hər tariximizin bir hissəsi olmaqla, bütöv bir millətin Vətənə, torpağa sevgi simvoluna dönür. Elə ölümündən sonra layiq görüldüyü "Şücaətə görə", "Vətən uğrunda ", "Vətən müharibəsi iştirakçısı", "İgidliyə görə", eləcə Cəbrayılın, Füzulinin, Kəlbəcərin azad olmasına görə medalları bütöv Azərbaycana olan halal sevginin nişanəsidir.***

Amal Seyfəddin oğlu Alişanlı 2001-ci il fevralın 11-də Yardımlı rayonunun Qabaqdibi qəsəbəsində dünyaya göz açır. Bir yaşda olanda valideynləri Şirvan şəhərinə köçürlər. Vətəninə, dövlətinə, xalqına sonsuz sevgi ilə boy atan Amal 2018-ci ildə orta məktəbi bitirir. Ailəsinə dəstək üçün müxtəlif sahələrdə çalışır. Təmiz ürəyi, vicdanı, qeyrəti ona el-oba hörmətini qazandırır. 2019-cu ildə Amalı həqiqi hərbi xidmətə çağıranda sevinir. Axı, o, uşaqlıqdan düşmən tapdağında olan Vətən torpaqların azadlığını düşünürdü. Doğma Azərbaycanın keşiyinə cəbhə bölgəsində durur. Onun müqəddəsliyini hər şeydən əziz tutan Amal hər an uğrunda canından keçməyə hazır olur. Bir neçə aydan sonra isə o, Xüsusi Təyinatlı Dəstəyə yazılır, Cəlilabad rayonunun Göytəpə sərhəd zastavasına göndərilir. Burada xidmət zamanı fəallığı, nizam-intizamı tez də Amalı zabitlərin, əsgərlərin gözündə ucaldır. Bir qayda olaraq komandirlərin verdiyi tapşırıqları vaxtında, dəqiq yerinə yetirir. Erməni dığalardan qisas almaq məqsədilə Xüsusi Təyinatlıların təlim məşqlərində yetəri hərbi biliklərə, ən əsası döyüş taktikalarının sirlərinə mükəmməl yiyələnir.

Amalın ordudan təxliyəsinə 3 gün qalmış İkinci Qarabağ savaşı başlanır. İgid döyüşçü müharibəyə atılan andan istəyi bütün silahdaşları kimi Vətənin bütövlüyü uğurunda başlanan savaşda son damla qanına qədər düşmənə qan qusdurmaq olur. Qeyri- bərabər döyüşlərdə erməni işğalçılarına sarsıdıcı zərbələr vurur. Füzuli rayonunun azadlığı uğrunda xüsusi şəxsi rəşadət, şücaət nümayiş edir. İnsan qanına susayan düşməni elə qanda boğur. Bu qələbədən sonra yağı üstünə daha cəsarətlə gedir. Vətən sevgisini Cəbrayıl rayonunda erməni faşistlərin çoxsaylı canlı qüvvəsini, saysız-hesabsız texnikasını məhv etməklə bir daha bildirir. Elə burada düşməndən qisasını alıb 2020-ci ilin 2 oktyabrda şərəfli şəhidlik zirvəsinə ucalır. Bununla da Amal qəhrəmanlar yurdu, müdriklər beşiyi Azərbaycanın əbədi qürur və and yerinə çevrilir.

***Zəfər Orucoğlu, AJB üzvü***




# Ukraynalı əsgərlər pikapı döyüş maşınına çevirdilər

***Ukraynalı əsgərlər vurulmuş Rusiyaya məxsus Ka-52 döyüş helikopterindən C-8 raket buraxılış qurğusunu Mitsubishi L200-ə quraşdırıblar.***

”Unikal” xəbər verir ki, yeni silahlardan istifadənin təfərrüatları və videoları Ukrayna Müdafiə Nazirliyinin ”Twitter” səhifəsində yer alıb.

“Beləliklə, indi Rusiya silahları həqiqətən etibarlı əllərdədir. Ukrayna əsgərləri vurulmuş Rusiyaya məxsus Ka-52 helikopterindən raket buraxılış qurğusunu maşınlarına quraşdıraraq işğalçılara qarşı istifadə edirlər. Mitsubishi L200 üçün ukraynalı könüllülərə təşəkkür edirik. Amma biz hələ də HIMARS və M270-i gözləyirik”, - deyə Müdafiə Nazirliyinə yazıb.

# Ruslar ən böyük günəş elektrik stansiyasını oğurladılar

***Zaporojye vilayətində rus işğalçıları Ukraynanın ən böyük günəş elektrik stansiyasını söküb yığışdırıblar.***

”Unikal” xəbər verir ki, bu barədə “Gazeta MIG” məlumat yayıb. Xatırladaq ki, martın 4-də Rusiya işğalçı qüvvələri Zaporojye Atom Elektrik Stansiyasını ələ keçirib. Bununla yanaşı ruslar Zaporojjya AES-ni hərbi bazaya çevirib.

Rusiya bəyan edib ki, 2022-ci il sentyabrın 1-dən ZNPP tamamilə Rusiyanın və müvafiq olaraq ”Rosatom”un nəzarəti altında olacaq.

# Fətullah Gülənin qardaşı qızı saxlanıldı

***Yunanıstana qanunsuz keçməyə çalışan 10 nəfər sərhəd qoşunlarımız tərəfindən yaxalanıb.***

”Unikal” xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, saxlanılan şəxslərdən 5-i FETÖ terror təşkilatı üzvü, biri isə FETÖ lideri Fətullah Gülənin qardaşı qızı Süməyyə Güləndir.

# Polşa prezidenti Ukraynanı xəzinə adlandırdı

***Polşaya əhəmiyyətli iqtisadi və təbii potensiala malik və “gələcək onilliklər üçün inkişaf xəzinəsi” olan güclü və müstəqil Ukrayna lazımdır.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bunu Polşa prezidenti Anjey Duda Varşavada keçirilən 590-cı Konqres Forumunda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, güclü olmaq üçün Polşaya “Avropanın bir hissəsi kimi güclü, müstəqil, suveren Ukrayna” lazımdır. Duda Ukraynanın böyük iqtisadi və təbii potensiala malik olduğunu vurğulayıb.

”Əminliklə demək olar ki, Ukrayna eləcə də bütövlükdə Aİ üçün növbəti onilliklər üçün inkişaf xəzinəsidir”, - Polşa lideri bildirib.

***Gülayə Mecid***

# "Müharibə uzun sürəcək" - NATO-nun baş katibi

***Müttəfiqlər Ukraynanı lazım olan qədər silahla təmin etməyə davam edə bilərlər.***

”Unikal” ”Politico”ya istinadən xəbər verir ki, bunu NATO-nun baş katibi Yens Stoltenberq deyib.

Onun sözlərinə görə, Ukraynada müharibə uzun sürəcək. O, həmçinin bildirib ki NATO müttəfiqlərinin silah tədarükünü dayandırmamaq üçün “siyasi və mənəvi öhdəlikləri” var.



”Biz müasir silahlarla, ağır silahlarla təchiz etməliyik, necə ki, NATO müttəfiqlərinin uzun müddətdir etdikləri kimi və NATO-nun dəstəyin təmin edilməsində rolu var”, - Stoltenberq bildirib.

O vurğulayıb ki, Ukraynada müharibə faktiki olaraq 2014-cü ildə, Rusiyanın Krımı ilhaq etməsi və Ukraynanın şərqindəki silahlıları dəstəkləməsi ilə başlayıb.

***Gülayə Mecid***

# "İqtisadiyyatımız tamamilə çöküb" - Baş nazir

***Şri Lankanın Baş naziri Ranil Vikremesinq Parlamentdə hökumətin iqtisadiyyatı sabitləşdirmək üçün qlobal tərəfdaşlarından və Beynəlxalq Valyuta Fondundan (BVF) kömək istədiyini deyib.***

”Unikal” CNN-ə istinadən xəbər verir ki, Baş nazirin sözlərinə görə, hazırda 22 milyonluq ada ölkəsi iqtisadi çöküş mərhələsindədir.

Qeyd olunub ki, Şri-Lankanın valyuta ehtiyatları rekord həddə düşüb, ərzaq, dərman və yanacaq daxil olmaqla, vacib idxalı ödəmək üçün dollar tükənib. İndi ölkə son 70 ilin ən pis maliyyə böhranının ortasındadır.

Son həftələrdə hökumət böhranın öhdəsindən gəlmək üçün kəskin tədbirlər görsə də, hələ də buna nail olunmayıb.

”Tamamilə çökmüş iqtisadiyyatı, xüsusən də xarici ehtiyatları təhlükəli dərəcədə aşağı olan ölkəni dirçəltmək asan məsələ deyil. Əgər başlanğıcda heç olmasa iqtisadiyyatın çöküşünü ləngitmək üçün addımlar atılsaydı, bu gün bu çətin vəziyyətlə üzləşməzdik”, - Vikremesinq əlavə edib.

Onu da deyək ki, əhali ilə polis arasında qarşıdurmalar, həmçinin ayrı-ayrı ərazilərdə xaos yaranıb.



Polis rəsmilərinin bildirdiyinə görə, təkcə bu həftə yanacaq növbələrində 11 nəfər ölüb.

***Ağarza Elçinoğlu***

# Çin prezidenti Rusiyaya qarşı sanksiyaları tənqid etdi

***Çin prezidenti Si Cinpin ölkələrin adlarını çəkmədən Qərbin Rusiyaya qarşı iqtisadi sanksiyalarını tənqid edib.***

”Unikal” xəbər verir ki, BRİKS Liderlər Zirvəsi öncəsi keçirilən biznes forumda çıxış edən Si, hegemonluğa can atmağın və bloklar arasında qarşıdurmanın sülh və təhlükəsizliyi təmin etmədiyini açıqlayıb.

”Ukrayna böhranı dünyada hamı üçün yeni oyanış zəngidir. Bu (böhran) bizə xatırladır ki, hakimiyyət mövqeyində olmağa kor-koranə inam, başqalarının təhlükəsizliyi hesabına öz təhlükəsizliyini təmin etməyə çalışmaq nəticə verəcəkdir”,- deyə Çin lideri deyib.

Böyük və inkişaf etmiş ölkələrin



iqtisadi siyasətlərində məsuliyyətli davranmaları, izlədikləri siyasətlərin mənfi təsirlərinin və inkişaf etməkdə olan ölkələrə yüklədikləri ağır yükün fərqində olması lazım olduğuna diqqət çəkən Si, sözlərinə belə davam edib:

”Dəfələrlə sübut olunub ki, sanksiyalar iki tərəfli qılıncdır və onları bumeranq effekti ilə tətbiq edənlərə zərər verir. Beynəlxalq maliyyə və valyuta sistemlərindəki hökmranlıqlarından qlobal iqtisadiyyatı siyasiləşdirmək üçün istifadə etməyə çalışanlar, onların onlardan özlərinə təsir bıçaq və silah kimi istifadə edər, nəticədə həm özlərinə, həm də başqalarına zərər verər və bütün dünyaya fəlakət gətirər”.

Maraqlıdır ki, Si Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikadan ibarət BRİKS qrupunun sammiti öncəsi sanksiyalarla bağlı tənqidi fikirlər səsləndirməsi dünya mətbuatında gündən mövzusuna çevrilib.

***Gülayə Mecid***

# G7 və NATO Ukraynadakı müharibə ilə bağlı Rusiyaya təzyiqi artıracaqlar

***G7 ölkələrinin və Şimali Atlantika Alyansının nümayəndələri Ukraynadakı müharibəyə görə Rusiya Federasiyasına təzyiq göstərmək üçün yeni üsullar hazırlayacaqlar.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, liderlər Çinin mövqeyindən narahatdırlar.

Avstraliya, Yaponiya, Cənubi Koreya və Yeni Zelandiya liderləri Ukraynadakı müharibəyə baxmayaraq Qərb ölkələrinin hələ də Çinə baxdığını göstərmək üçün NATO sammitinə daxil edilib.

”Rusiyanın Ukraynaya qarşı müharibəsi dünya miqyasında tərəfdaşlığımızı gücləndirdi. Lakin bu, Ukraynanın bizi Çindən uzaqlaşmağa məcbur etməsi demək deyil. Əslində, tam əksinə”, - mesajda deyilir.

Qeyd olunur ki, NATO sammitində onlar Rusiya və Çindən gələn təhlükələrin aradan qaldırılmasına yönələcək yeni strateji konsepsiya qəbul edəcəklər.

Həmçinin məlumat üçün əlavə edək ki, Ukrayna Prezidenti Vladimir Zelenski G7 və NATO sammitlərində çıxış edəcək.

***Aynurə Xudaverdiyeva***

# Güləşçilərimiz 8 medal qazandı



***Azərbaycan güləşçiləri İtaliyanın paytaxtı Romada keçirilən Matteo Pellikone turnirində 8 medalla start verib.***

"Unikal" xəbər verir ki, ilk yarış günündə 55, 60, 63, 67, 87, 97 və 130 kq-da çıxış edən yunan-Roma güləşçiləri mübarizə aparıb. 60 kq-da iştirakçılar 2 qrupa bölünüb. A qrupunda yer alan güləşçilərdən Murad Məmmədov ilk turda türkiyəli Ekrem Öztürkə (14:1), Nihat Məmmədli isə amerikalı İldar Hafizova (9:4) qalib gəlib. İkinci turda güləşçilərimiz bir-biriylə qarşılaşıb. Daha təcrübəli Murad 7:1 hesablı qələbə əldə edib. Sonuncu turda Nihat Ekrem Öztürkü (11:0), Murad isə İldar Hafizovu (9:0) çətinlik çəkmədən məğlub edərək yarımfinala yüksəliblər.

B qrupunda yer alan Eldəniz Əzizli startda rumıniyalı Teodor Horataunu çətinlik çəkmədən məğlub edib - 8:0. Dünya və Avropa çempionumuz növbəti görüşdə 2018-ci ildə qitə birinciliyinin finalında qalib gəldiyi Helari Maeqisaluya (Estoniya) tam üstünlüklə (10:0) qalib gəlib və adını yarımfinala yazdırıb.

Murad yarımfinalda Helarini (9:4), Eldəniz isə Nihatı (9:0) üstələyib. Məmmədli 3-cü yer uğrunda görüşdə Maeqisaluya (10:0), Məmmədov isə finalda Əzizliyə (9:1) qalib gəlib.

63 kq-da A qrupunda qərarlaşan Taleh Məmmədov ilk görüşdə moldovalı dünya və Avropa çempionu Viktor Çiobanuyla bacarmayıb. Məmmədov ikinci turda amerikalı Deyvid Telkeyə tam üstünlüklə qalib gəlib - 10:0. Taleh yarımfinalda rumıniyalı Razvan Arnauta gücünü göstərib - 4:1. Məmmədov finalda yenidən Çiobanuyla qarşılaşıb və bu dəfə revanş alıb - 4:2

Həsrət Cəfərov (67 kq) təsnifat mərhələsində macar Erik Torbanı vaxtından əvvəl məğlub edib - 8:0. Cəfərov 1/4 finalda isveçli Niklas Oehlenə də aman verməyib - 9:0. Həsrət yarımfinalda 23 yaşadək güləşçilər arasında dünya ikincisi Məhəmməd Cavad Rezaiyə (İran) 8:3 hesabıyla qalib gələrək adını finala yazdırıb. Həlledici görüşdə türkiyəli Furkan Yıldıza göz açmağa imkan verməyən (9:0) Cəfərov baş mükafata yiyələnib.

İslam Abbasov (87 kq) ilk mərhələdə estoniyalı Ranet Kaljoladan güclü olub - 5:0. Abbasov 1/4 finalda macar İştvan Takaçı yolundan kənarlaşdırıb - 10:4. İslam yarımfinalda dünya ikincisi Aleks Kessidisə (İsveç) qalib gəlib - 2:0. Sumqayıt güləş məktəbinin yetirməsi finalda Macarıstanın digər təmsilçisi Erik Silvaşini sonuncu xal prinsipinə əsasən (1:1) üstələyərək, turnirin qalibi olub.

97 kq-da təmsilçilərimiz 1/8 finalda üz-üzə gələcək. Arif Niftullayev cərimə xallarıyla Murat Lokyayevi üstələyib - 2:0. Niftullayev 1/4 finalda macar Aleks Şokeyə 1:3 hesabıyla uduzub.

Sabah Şəriəti (130 kq) ilk görüşdə 23 yaşadək güləşçilər arasında son Avropa çempionu Dariuş Attila Vitekə (Macarıstan) heç bir şans tanımayıb - 8:0. Şəriəti 1/4 finalda amerikalı Kolton Şults üzərində də təmiz qələbə qazanıb - 10:0. Bu mərhələdən mübarizəyə qoşulan Beka Kandelaki isə litvalı Romas Fridrikasa qalib gəlib - 4:0. Yarımfinalda təmsilçilərimiz üz-üzə gəlib. Sabah sonuncu xal prinsipinə əsasən (1:1) finala vəsiqə qazanıb. Kandelaki 3-cü yer uğrunda görüşdə Şultsu 4:2 hesabıyla məğlub edibsə, Şəriəti finalda dəfələrlə dünya və Avropa çempionu olmuş Rza Kayaalpa (0:4) uduzub - 0:4.

Beləliklə, yunan-Roma güləşçilərimiz ilk yarış günündə 4 qızıl, 2 gümüş və 2 bürünc medal qazanıb.

# Maradonanın həkimləri məhkəmə qarşısına çıxarılacaq

***Futbol əfsanəsi Dieqo Armando Maradona-nın ölümü ilə bağlı aparılan istintaqda səkkiz tibb işçisinin səhlənkarlığa görə mühakimə olunmasına qərar verilib.***



"Unikal" xəbər verir ki, məşhur argentinalı futbolçu 2020-ci ildə 60 yaşında Buenos-Ayresdəki evində ürək tutmasından vəfat edib. Beynindəki qan laxtalanması səbəbindən əməliyyat olunan və ev şəraitində müalicə olunan Maradonanın ölümündən sonra həkimləri və tibb bacıları haqqında istintaq başladılıb.

İstintaq çərçivəsində rəy verən tibb komitəsi məşhur futbolçunun müalicəsində nöqsanların olduğunu bildirib. Bundan sonra məhkəmə Maradonanın neyrocərrahı, şəxsi həkimi, psixiatrı, həkimləri və tibb bacılarına qarşı "ehtiyatsızlıqdan adam öldürmə" ittihamı ilə iddia qaldırmağa qərar verib. Bu şəxslər günahı sübuta yetirilərsə, 25 ilədək həbs cəzası ala bilərlər.

***Gülayə Mecid***



# "Qarabağ" yeni transfer edəcəkmi? - Açıqlama

***"Hazırda transfer çalışmalarımız davam edir. Amma hələ konkret razılığa gəldiyimiz futbolçu yoxdur".***

Bu sözləri Qol.az saytına açıqlamasında "Qarabağ" klubunun mətbuat xidmətinin rəhbəri Gündüz Abbaszadə deyib. Hazırda Ağdam təmsilçisi ilə Avstriyada təlim-məşq toplanışında olan G.Abbaszadə həmin futbolçuların hansı mövqedə çıxış etməsi barədə açıqlama verməyib:

"Bəli, transfer çalışmalarımız davam edir. Əgər rəsmi tam razılıq əldə olunarsa, bu haqda ictimaiyyətə məlumat verəcəyik".

Xatıradaq ki, "Qarabağ" bu yay transfer pəncərəsi zamanı Monteneqro millisinin yarımmüdafiəçisi Marko Yankoviçi heyətinə qatıb. Bundan başqa, komandada icarə qaydasında oynamış qapıçı Luka Quqeşaşvili birdəfəlik transfer edilib.

# Milli komandamızda baş məşqçi dəyişikliyi

***Azərbaycan Taekvondo Federasiyasının İdarə Heyətinin toplantısı keçirilib.***

"Unikal" federasiyanın mətbuat xidmətinə istinadən xəbər verir ki, toplantıda məşqçi müəllimlərin fəaliyyəti, taekvondoçuların çıxışları müzakirə olunub. Verilən qərara əsasən, məşqçi müəllimlərin heyətində müəyyən dəyişikliklər olunub.

Öz xahişi ilə istefa verən kişilərdən ibarət milli komandanın baş məşqçisi Reza Mehmandoustun yerinə Məmməd Abdullayev, köməkçi məşqçi Rəşad Məmmədov, Sənan Həşimov isə qadınlardan ibarət milli komandanın böyük məşqçisi təyin olunub.

# Neymar "Barselona"ya təklif olundu

***PSJ-nin hücumçusu Neymar karyerasını "Barselona"da davam etdirə bilər.***

Apasport.az saytının məlumatına görə, Fransa klubu ispaniyalılara braziliyalını almağı təklif edib.

Paris təmsilçisi cənubi amerikalı üçün 50 milyon avro istəyir. Danışıqlarda vasitəçi rolunu tanınmış futbol agenti Pini Zahavi oynayır. PSJ hətta transfer qiymətini müzakirə edərək aşağı salmağa da razıdır.

30 yaşlı forvard da "Barselona"ya qayıtmağın əleyhinə deyil. Kataloniya klubu bu transferdə maraqlı olmasa da, Joan Laporta ilə Zahavi arasında münasibətlərin istiliyi keçidə təsir edə bilər.

Qeyd edək ki, Neymar ötən mövsümün 28 oyununda 13 qol və 8 assistə imza atıb.

# "Qalatasaray"ın yeni baş məşqçisi bəlli oldu

***"Qalatasaray" yeni baş məşqçisini açıqlayıb. Türkiyə klubu sabiq futbolçusu Okan Buruku bu posta təyin edib.***

"Cim-bom" 48 yaşlı mütəxəssislə 1+1 illik müqavilə imzalayıb. Anlaşmaya əsasən, Buruk ilk mövsümündə 930 min avro maaş alacaq. Gələn ilin yayında onun daha bir il qalması qərara alınsa, həmin vaxt məvacibi 1 milyon avro təşkil edəcək.

O, bu postda istefaya göndərilən Domenek Torreni əvəzləyib.

Qeyd edək ki, Okan Buruk 1991-2001 və 2006-2008-ci illərdə "Qalatasaray"ın formasını geyinib. Çalışdırıcı 2013-cü ildə başlayan məşqçilik karyerasında isə "Elazığspor", "Qaziantepspor", "Sivasspor", "Göztepe", "Akhisar", "Çaykur Rizespor" və "Başakşehir"ə rəhbərlik edib.